

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 2023-cü il: Şərqi Zəngəzura və Qarabağa qayıdış ili



2

№ 241 (6924)

30 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# 2024-CÜ İLDƏN GERİYƏ BAXARKƏN




8

**Son 20 il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsidir**

# Dünya Qərb-Şərq döyüşü astanasında



5

## "Boykot" sifarişli təxribatdır



11

## Söhbət əvəzinə smaylik, görüş yerinə videozəng



15

## Uşaqlar və diabet: səhərlər yemək yemirsə...



12

## Dünya əhalisinin sayı 8 milyardı keçir



16

## Dünyanın gəmisi batır...



11

# 2023-cü il: Şərqi Zəngəzura və Qarabağa qayıdış ili

2023-cü il tariximizdə Böyük Qayıdışın sürətli inkişaf mərhələsi kimi qaldı. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərimizin hər biri, məhz Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevrilir və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir ki, istəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək: ”Laçında hazırda yüzlərlə ev yenidən qurulur, təmir edilir, o cümlədən ictimai binalar. İlin sonuna qədər dediyim kimi, laçınlıların birinci qrupunu biz artıq yerləşdirəcəyik. Zabux və Sus kəndlərində də məncə, 200-dən çox ailə məskunlaşacaq”. Artıq bu fikirlərin reallığına şahidlik edirik.







Ölkə Prezidentinin Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin daimi təhlükəsiz məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün şərait yaradır.

Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. Məlumdur ki, birinci pilot layihə olan ”Ağıllı kənd” layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda ”Ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu.

## LAÇIN ŞƏHƏRİNDƏ 408 AİLƏ, YƏNİ 1555 NƏFƏRİN DAİMİ MƏSKUNLAŞMASI TƏMİN EDİLDİ

Daha sonra isə digər ərzizilərimizə qayıdış oldu. ”Ən tez öz doğma ocaqlarına qayıdan laçınlılar olacaq. Çünki dərhal göstəriş verildi, indi Laçın şəhərində geniş quruculuq-bərpa işləri gedir və indi baxacağıq, Zabux kəndində hansısa varlı erməni tərəfindən evlər tikilibdir. Mən o evləri müvəqqəti olaraq hərbçilərə vermişəm. Mən dedim ki, bizim vətəndaşlar o evlərdə yaşamayacaq. Onlardan biz kazarma kimi istifadə edirik. Amma zabuxlular üçün Zabux kəndində yeni qəsəbə salınır və bu il biz onları oraya göndərəcəyik” - deyə Prezident bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Laçın şəhərinə köçən daha 25 ailə mənzillərinin açarlarını təhvil alıb. Bu dəfə Laçın 25 ailəyə qucaq açıb və daha 80 nəfərin yurd həsrəti bitib. Bununla da Laçın şəhərində 408 ailə, yəni 1555 nəfərin daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.



Böyük Qayıdış proqramı çərçivəsində Laçının Zabux kəndinə qayıdan ailələrdə bu il böyük sevinc yaşadılar. Yeni evlərinin açarlarını təhvil aldılar. Onlar kənddə böyük coşqu ilə qarşılanıb, illərdir həsrətini çəkdikləri kəndin gözəl mənzərəsini seyr ediblər. Zabux kəndində 203 ailənin, yəni 783 nəfərin daimi məskunlaşması təmin olunub. Qeyd edək ki, Zabux sakinləri üçün doğma kəndlərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən evlərdə yaşayış üçün bütün şərait yaradılıb.

Bütün bunlarla yanaşı, bir çox kəndlərdə artıq inşaat işlərinə başlanılıb. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də başlanılıb. ”Torpaq çəkir və əminəm ki, bizim keçmiş köçkünlərimizin hamısı qayıdacaq”, - deyə Prezident bildirib.

**”HƏM MÜHARİBƏDƏ QALİB OLMAQ, XALQIMIZIN ÜMİDLƏRİNİ DOĞRULTMAQ, EYNİ ZAMANDA, QURUB-YARATMAQ - BUNDAN BÖYÜK XOŞBƏXTLİK OLA BİLMƏZ”**

Bu gün artıq bir çox ərazilərimiz kimi, Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndində də bərpa-quruculuq işləri davam etdirilir. Bir zamanlar doğma yurdlarından didərgin düşənlər Talış kəndi ilə də görüşdülər. Evlərin daxilində kommunikasiya sistemi çəkilib, hər bir ev mətbəx mebeli ilə təchiz edilib. Məişət avadanlıqları sakinlərin köçürülməsindən öncə qurulub, tam hazır və işlək vəziyyətə gətiriləcək. Kənddə inzibati binada, məktəbdə, uşaq bağçasında, xeyir-şər evi və mağazada əsaslı təmir işləri davam edir. Talış kəndində qaz, elektrik, su, rabitə xətlərinin çəkilişi aparılır. Müasir kanalizasiya sistemi inşa olunur. Kəndarası yollar da yenidən qurulur. Yolların işıqlanması günəş panelləri ilə çalışan işıq dayaqları vasitəsilə həyata keçiriləcək. ”Bu, doğrudan da böyük xoşbəxtlikdir. Həm müharibədə qalib olmaq, xalqımızın ümidlərini doğrultmaq, eyni zamanda, qurub-yaratmaq - bundan böyük xoşbəxtlik ola bilməz”, - deyə bildirən Prezident vurğulayıb ki, bu, bir daha xalqımızın böyüklüyünü göstərir ki, xalqımız doğrudan da uzun illər ərzində əyilmədi və öz kimliyini unutmadı: ”Zəngilanın Ağalı kəndində uşaqların baxışlarını, gülüşlərini görəndə vallah, adam sanki uçur. Axı onlar bu yerləri ancaq kitablarda görüblər, məktəblərdə eşidiblər, valideynlərindən, babalarından, nənələrindən eşidiblər, amma indi gəliblər oraya. Torpaq çəkir və əminəm ki, bizim keçmiş köçkünlərimizin hamısı qayıdacaq”.

Necə ki, füzulililərdə öz əzəli torpaqlarına qovuşurlar. İndiyədək Füzuli şəhərinə 358 ailənin, yəni 1 298 nəfərin daimi məskunlaşması təmin edilib.

Bu gün öz əzəli torpaqlarına qayıdanlar Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını Laçında, Füzulidə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində böyük coşqu ilə qeyd edirlər. Milli birlik, mənəvi dəyərlərimizə hörmət, Vətənə məhəbbət və bağlılıq hisslərini özündə təcəssüm etdirən Həmrəylik Günü və Yeni il münasibətilə təşkil olunmuş tədbirlərdə Dövlət Himni səslənib, torpaqlarımızın bütövlüyü uğrunda canını fəda etmiş qəhrəman oğullarımızın ruhu bir dəqiqəlik sükutla anılıb. Zaman yetişəcək bütün əzəli torpaqlarımızda milli bayramlarımızı coşqu ilə qeyd edəcəyik. Bir milyondan artıq əzəli torpaqlarından olanların hər bir bu sevinci yaşayacaqlar. Bu sevinci bizlərə yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir.

***Zümrüd BAYRAMOVA***

# “The Guardian”: ”Azərbaycan və Ermənistan sülh sazişi imzalamağa yaxındır”

***Nüfuzlu ”The Guardian” nəşrində Azərbaycanla bağlı məqalə dərc olunub. Məqalənin müəllifi Patrik Vinturun, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın bu günlərdə Sankt-Peterburqda görüşdüklərini xatırladıb. Qeyd edilib ki, Azərbaycanın rəsmi şəxsləri ölkənin çoxillik münaqişəyə son qoymaq üçün Ermənistanla sülh sazişinin imzalanmasına yaxın olduğunu bəyan ediblər. O, Azərbaycanın antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsi üzərində nəzarəti tam bərpa etdiyini bildirib.***


Support us →
The Guardian
News website of the year
News Opinion Sport Culture Lifestyle
Azerbaijan
Azerbaijan close to peace agreement with Armenia, officials say
Azerbaijani president Ilham Aliyev has met Armenian PM Nikol Pashinyan for bilateral talks in St Petersburg
Patrick Wintour *Diplomatic editor*
Wed 27 Dec 2023 20.36 CET
Azerbaijani officials have said the country could be closing in on a peace agreement with Armenia to end their decades-long conflict following its lightning offensive in September to take control of its Nagorno-Karabakh region.

Vurğulanıb ki, iki ölkə münasibətləri normallaşdırmaq və sərhədləri qarşılıqlı tanımaqla sülh sazişinin imzalanması barədə danışıqları sürətləndirib. Oxucuların diqqətinə çatdırılıb ki, bu yaxınlarda hər iki tərəf xoş məram nümayiş etdirərək saxlanılan şəxsləri dəyişdirib. Eyni zamanda, tərəflər vasitəçi olmadan birgə bəyanatla çıxış ediblər. Məqalədə bildirilib ki, dekabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda Paşinyanla görüşüb. Tərəflər artıq sülh sazişi üzrə potensial və nisbətən qısahəcmli bir neçə layihəni mübadilə ediblər. Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov deyib ki, ölkə hazırda sonuncu sülh sazişi layihəsində göstərdiyi təkliflərə Ermənistanın cavabını gözləyir.

”Anlamaq vacibdir ki, danışıqların belə bir həlledici mərhələsində biz gördüyü kimi, yekun sazişin imzalanmasından elə də uzaq deyilik, bu halda bizə nəticəyə gətirib çıxaracaq səylər gərəkdir. Mən bilirəm ki, üç onillik ərzində davam edən və heç bir ciddi nəticələr verməyən danışıqlardan sonra tərəflərin hər birində müəyyən yorğunluq, üstəlik, hər hansı həqiqi nəticələr olmadan tərəflərin bir-biri ilə görüşlərinin hələ nə qədər davam edəcəyi ilə bağlı yaranmış məyusluq var”, - deyə o qeyd edib.

Müəllif qeyd edir ki, E.Əmirbəyovun sözlərinə görə, sülh sazişi layihəsinin beş prinsipi aşağıdakı maddələri ehtiva edir: bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, indi və gələcəkdə bir-birilərinə qarşı hər hansı ərazi iddialarını və ziddiyyət təşkil edən hər hansı aktları, gücdən istifadə və ya güc tətbiq etmək hədəsi kimi BMT nizamnaməsinə zidd olan hər hansı hərəkətləri rədd etmək, eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası, iki ölkə arasında kommunikasiyaların və əlaqələrin qurulması. Sərhədlərin demarkasiyası məsələsi çətin olduğundan daha sonrakı mərhələdə də həll edilə bilər.

Azərbaycan, həmçinin bu sazişin müəyyən mənada mübahisələrin həlli mexanizmini də nəzərdə tutmasını istəyir. ”Biz, həmçinin yarana biləcək bütün mümkün anlaşılmazlıqları və fərqlilikləri yoluna qoya biləcək ikitərəfli komissiyanın yaradılmasını ehtiva edən maddənin sülh sazişində öz əksini tapacağı müqaviləyə nail olmağa üstünlük veririk”, - deyə nəşr E.Əmirbəyovun sözlərindən sitat gətirir. Müəllif, eyni zamanda, Naxçıvan məsələsinə də toxunur, 2020-ci ilin noyabrında imzalanmış Bəyanatda Paşinyanın Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyalarının açılmasına razılıq verdiyini bildirib. ”Biz bundan artıq vaxt itirə bilmərik. Üç il ərzində Ermənistan hətta 42 kilometrlik yolun texniki-iqtisadi əsaslandırılmasına başlamayıb. Əlbəttə, biz Ermənistanı üzərinə öhdəlik kimi götürdüyü işi görməyə vadar edə bilmərik, üstəlik, bu layihəni zorla da olsa həyata keçirmək üçün həmin ölkənin ərazisinə müdaxilə edəcəyimizi güman etmək də çox mənasızdır. Buna görə də, biz İrandan keçməklə avtomobil və dəmir yolu xəttinin inşası üçün Tehrana müraciət etdik”, - deyə xüsusi tapşırıqlar üzrə nümayəndə qeyd edib.

# ”Fransa Azərbaycanın qələbəsini heç bir vəchlə həzm edə bilmir”



**Fransa Azərbaycanın qələbəsini heç bir vəchlə həzm edə bilmir. Bu barədə Fransanın ”Le Monde” qəzetinə müsahibəsində Fransa-Azərbaycan münasibətlərinin gərginləşməsi ilə bağlı məqalənin müəllifi, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib. O qeyd edib ki, hazırda müşahidə olunan ikitərəfli münasibətlərin pisləşməsi Ermənistan-Azərbaycan qarşıdurmasında Fransanın tamamilə ədalətsiz, qərəzli ermənipərəst mövqeyi ilə bağlıdır.**

Artıq uzun illərdir ki, Ermənistana hər cür diplomatik, iqtisadi, son zamanlar isə həm də hərbi dəstək verən Fransa özünün ziyanverici fəaliyyəti ilə Ermənistan ilə Azərbaycan arasında sülhə nail olunmasının perspektivlərinə zərbə vurur.

BMT Təhlükəsizlik Şurası, Avropa İttifaqı və onun təsisatları kimi müxtəlif beynəlxalq platformalardan açıq-aşkar anti-Azərbaycan təşəbbüslərinin həyata keçirilməsi məqsədilə bir alət qismində istifadə edilməsi təkcə Fransanın onsuz da şübhəli olan potensial vasitəçi reputasiyasını tamamilə məhv etməyib, həm də Parisə qabaqcıl rollardan birini ayıran Avropa İttifaqının özünə münasibətdə Bakının etimadına ciddi zərər verib.

E.Əmirbəyov vurğulayıb ki, İrəvana ölümcül silahların tədarükü Cənubi Qafqaz regionunda sabitliyi pozur və təhlükəsizliyə zərbə vurur, onu yeni hərbi münaqişələrə, mənasız silahlanmaya sürükləyir və Ermənistan ilə Azərbaycan arasında sülhə nail olunması perspektivlərini süni şəkildə uzaqlaşdırır.

E.Əmirbəyov sonda deyib: ”Aydındır ki, Fransa tarixi ədaləti bərpa etmiş, Qarabağda və özünün digər ərazilərində otuzillik erməni işğalına son qoymuş Azərbaycanın qələbəsini həzm edə bilmir”.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

**İlk öncə Makedoniya türklərinin milli və dövlət bayramı olan 21 Dekabr - Türkcə Təhsil Günü münasibətilə göndərdiyiniz xoş təbrikə görə Sizə, qardaş Yeni Azərbaycan Partiyasına və canımız qədər sevdiyimiz Azərbaycan xalqına səmimi təşəkkürümüzü bildiririk.**

Hər iki ölkə öz tarixinin ən mühüm anlarını və nailiyyətlərini yaşayır. Böyük Türk dünyasının ən hörmətli dövlət xadimlərindən biri olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş, regionun ən qüdrətli dövlətləri sırasında öz yerini tutmuşdur.

Bu münasibətlə 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində YAP-ın namizədi olan cənab Prezidentimiz İlham Əliyevi və partiyanızı təbrik edir, azərbaycanlı qardaşlarımızın tam dəstəyini alacağından zərrə qədər şübhə duymadığımız cənab Prezidentimizə tam dəstəyimizi bildiririk.

Fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edir, partiyalarımıza, ölkələrimizə, vətəndaşlarımıza və dünyaya xeyirli-uğurlu və sülhlə dolu bir il olacağını ümid edirəm. Hörmətlə,

***Beycan İlyas***
***Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri***

# “Xüsusi xidmət şəbəkəsinin ifşası Fransa üçün böyük uğursuzluqdur”

**“Mövcud beynəlxalq müstəvidə çoxsaylı beynəlxalq müqavilələr, o cümlədən 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyası və 1963-cü il Konsulluq Münasibətləri haqqında Vyana Konvensiyası diplomatların qonaq olduqları ölkədə davranışlarını təfsilatlandırır”. Bunu SİA-ya açıqlamasında politoloq Yeganə Hacıyeva bildirib.**



Onun sözlərinə görə, bir çox hallarda diplomatik toxunulmazlıqdan sui-istifadə xarici diplomatlara yaşadıqları və işlədikləri ölkənin qanunlarından imtiyazlı üstünlük mövqeyi verir: ”Diplomatik toxunulmazlıq Soyuq Müharibə dövründə, diplomatların əslində münaqişəli mühitdə işlədiyi və təhlükələrlə üz-üzə qaldığı zamanlarda məna kəsb edirdi, lakin indi isə bir çox hallarda imtiyazlı mövqe kimi sui-istifadə olunmaqdadır. Bəzən isə bu imtiyazlar diplomatları yaşadıqları və işlədikləri ölkənin qanunlarından üstün tutur. Məsələn, hazırda bütün dünyada xüsusi xidmət orqanları tərəfindən işçiləri səfirlik və digər diplomatik korpus nümayəndələri adı altında pərdələməklə ölkələrə yerləşdirmək təcrübəsi geniş tətbiq olunur. Bu kəşfiyyatçılara rahat şəkildə digər ölkələrdə fəaliyyət göstərmək imkanı yaradır, bu status onları qoruyur, cinayət və ya digər qeyri-qanuni fəaliyyətlərdə iştirak etdikləri aşkar edildində, onları məhkəmə və ya həbs cəzası gözləmir, yalnız ölkə ərazisindən deportasiya olunurlar. Belə ”diplomatlar” arasında əvvəllər diplomatik statusa uyğun gəlməyən qeyri-qanuni fəaliyyətlərinə görə başqa ölkələrdən qovulmuş insanlar da var”.

Politoloq bildirib ki, kəşfiyyat strukturlarının diplomatik ”örtüyü” olmayan nümayəndələri isə turistlər, elm adamları, jurnalistlər, iş adamları və ya diasporunun üzvləri adı altında digər ölkələrə yerləşir və üçüncü ölkədəki digər əməkdaşları ilə qarşılıqlı əlaqədə olurlar: ”Ümumuyyətlə isə diplomat kimi akkreditə olunan belə şəxslərin fəaliyyətini müəyyən etmək və izləmək daha çətindir. Bir sıra nufuzlu mediada son illər gedən faktaloji yazılarda Fransanın bir çox ölkələrdəki səfirliklərində son illər diplomatik örtük altında fəaliyyət göstərən kəşfiyyatçılardan kənarda, çox vaxt bu örtük olmadan kəşfiyyat əməliyyatları həyata keçirən şəxslər də aşkar şəkildə kurasiya olunması haqqında məlumatlar var. 2015 ci ildə Parisdə baş verən silsilə terror aktları Fransaya qarşı İkinci Dünya Müharibəsindən sonra ən dəhşətli hücum kimi müzakirə edilən mövzulardan biri də Fransa kəşfiyyat xidmətlərinin uğursuzlu idi. Eyni ildə Charlie Hebdo redaksiyasında terror aktı, Paris şəhərində supermarketdə alıcıların girov götürülməsi, Lion yaxınlığındakı Air Products zavodunda menecerin başının kəsilməsi kimi terror aktlarından sonra xüsusi xidmətlərin büdcəsinin bir neçə dəfə artırmaqla Fransanın müdafiəsinin gücləndirilməsi nəzərdə tutulurdu. Çünki ölkə prezidenti Fransua Ollandın da izləməyə gəldiyi futbol matçı da daxil olmaqla eyni anda altı müxtəlif terror aktı həyata keçirilmişdi. Artırılan büdcə isə Fransanı daxili təhlükələrdən qorumağa ayrılsa da, fransanın xaricdə kəşfiyyat şəbəkələrinin genişlənməsinə sərf olundu. Məsələn, fransa xüsusi xidmət şəbəkələri 44 günlük vətən müharibəsi dövründə Azərbaycan ərazisində ermənistanın xeyrinə kəşfiyyat fəaliyyəti göstərdi. Avropa Birliyinin Şərq Tərəfdaşlığı proqramı üzv ölkələri olan Avropanın Cənub Şərqi sərhədlərində məhz birliyin əleyhinə fəaliyyət göstərdi və s. Azərbaycan da daxil bir çox ölkələrdə, vətənfaşlar onların səfirlik işçiləri və ya diplomat olduğuna inanıb, əlaqə qurara onlar tərəfindən ölkə ərazisində casusluq işləri üçün istifadə olunublar”.

Y. Hacıyeva qeyd edib ki, aşkar olunan casusluq şəbəkəsinin əsas məqsədi siyasi və hərbi xarakterli kəşfiyyat fəaliyyəti həyata keçirmək olub: ”Bu addımlar, bir ölkənin daxili işlərinə bu cür müdaxilə diplomatik statusla açıq şəkildə bir araya sığmayan fəaliyyətdir. Fransa dövlətçiliyinin mühüm tərkib hissəsi olan Afrikadakı post-müstəmləkə sistemi çökməsi ilə paralel Cənubi Qafqazda xüsusi xidmət şəbəkəsinin ifşası Fransa üçün böyük geosiyasi uğursuzluqdur. Nəticədə son bir neçə il dünyada post-müstəmləkə siyasəti ilə təhrik edilən anti-fransız əhval-ruhiyyəsinin kəskin artması kimi bir tendensiya izkənməkdədir. Eyni anda bir neçə cəbhədə oynamağa çalışan Fransanın xarici siyasəti öncə Ukraynada, sonra Afrikada uğursuzluğa düçar oldu. İndi isə Azərbaycanda Fransanın casusluq şəbəkəsinin ifşa olunması mövcud geosiyasi uğursuzluğu daha da dərinləşdirir”.

***Rəşid Qarayev***

# Xoş gəldin, AĞDƏRƏ!



**20 sentyabr kimi böyük tarixlə yaddaqalan və tarixin səhifələrinə Xankəndi, Xocalı, Xocavənd, Əsgəran, Ağdərə kimi əzəli Azərbaycan torpaqlarının erməni qəsbkarlarından azad edilməsi ili kimi yazılan 2023-cü il əsrlər sonra da bu böyük Zəfərlə yad olunacaq, qürur tariximiz, şərəfimizin, namusumuzun xilası günü kimi xatırlanacaq. 2023-cü il həm də Ağdərənin Ağdərəyə qaytarılması, ləğv edilmiş, lakin ürəklərdə, yaddaşlarda yaşayan bir rayonun dövlətimizin başçısı tərəfindən yenidən soydaşlarımıza hədiyyə edilməsi ili kimi də yaddaşlara həkk olunacaq.**

”Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1043-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2023-cü il tarixli Fərmanı tamamlanmaqda olan ildə hər bir azərbaycanlı üçün yeni bir Zəfər, qürur mənbəyi oldu. Fərmanla illər öncə üzərindən qara xətt çəkilmiş bu dilbər yurdumuza-Ağdərəyə yeni həyat bəxş olundu, o, yenidən həyata vəsiqə aldı.

### Ağdərəyə bir nəzər

Rayon 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 10 sentyabr 1939-cu ilədək Cerabert, 1991-ci ilə qədər Mardakert, həmin tarixdən ləğv olunana kimi isə Ağdərə adlanıb. İnzibati mərkəzi Ağdərə şəhəri olub. 1992-ci ilin oktyabrında Azərbaycan hökumətinin qərarı ilə Ağdərə rayonu ləğv edilərək, ərazisi Dağlıq Qarabağ ətrafındakı üç rayon - Tərtər, Ağdam və Kəlbəcər rayonları arasında bölünmüşdü. Həmin qərara əsasən rayonun Xatınbəyli, Qazançı, Maniklu (indiki Məlikli), Baş Güneypəyə, Orta Güneypəyə, Sırxavənd, Yeni Qaralar, Kiçan (indiki Ballıqaya) kəndləri və onlara məxsus torpaq sahələri Ağdam rayonunun; Çərəktar, Vaquas (indiki Qozlu), Kotavan (indiki Qozlukörpü), Verin Oratağ (indiki Yuxarı Oratağ), Arutunaqomer (indiki Qızılqaya), Qoçoqot (indiki Yayıcı), Poqosaqomer (indiki Dəvədaşı), Drombon (indiki Heyvalı), Çıldıran, Mehmana, Araçadzor (indiki Dovşanlı), Hayad, Tomaqahoğ (indiki Bazarkənd), Şahmasur (indiki Şahmansurlu), Vənkli (indiki Vəngli), Qarnakar (indiki Çormanlı), İmarət Qərvənd, Zardaxaç, Çapar, Aterk (indiki Həsənriz), Nareştar (indiki Narınclar), Damğalı, Kolatağ kəndləri və onlara məxsus torpaq sahələri Kəlbəcər rayonunun; Ağdərə şəhəri, Umudlu, Zəylik, Metsşen (Ulu Qarabəy), Möhrətağ (Kiçik Qarabəy), Ağabəyələnc (Ağabəyyalı), Mağavuz (Çardaqlı), Akop Kamari (Lüləsaz), Minqrelsk (Meqrelalay), Nerkin Oratağ (Aşağı Oratağ), Qasapet, Canyataq, Dəmirli, Gülyataq, kəndləri və onlara məxsus torpaq sahələri Tərtər rayonunun inzibati tərkibinə verilmişdi.

Erməni işğalına qədər Ağdərənin 14 kəndində 14 mindən çox azərbaycanlı yaşayıb. Ağdərə rayonu bir çox ərazilərimiz kimi Birinci Qarabağ müharibəsinin başlanğıcında erməni silahli qüvvələrinin nəzarəti altına keçir. 1992-ci ildə Azərbaycan ordusunun hücumu nəticəsində Ağdərə rayonu ərazisinin bir çox hissəsi erməni işğalçılarından azad edilir. 1 il boyunca Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir. Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçir. Onun rəhbərlik etdiyi ordu bölmələri öz mövqelərini qoyaraq Bakıya doğru hücuma qoşulur. Bundan məharətlə istifadə edən erməni ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal edir. 2023-cü il düz 30 il olurdu ki, biz Ağdərəsiz qalmışdıq








### 15 oktyabr-Ağdərənin bayraqlı günü

Ağdərə də Qarabağ və Şərqi Zəngəzurun müəyyən əraziləri kimi üçrəngli bayrağımızı doyunca sinəsinə sıxmamışdı. 1991-ci ildə bərpa etdiyimiz müstəqilliyimizdən az sonra bu tarixi Azərbaycan torpaqları nankor, qonşuluqdan kənar düşmən ermənilər tərəfindən işğal edilmişdi. Elə bu səbədən də qədim yurdlarımız 70 il sovet dövrünün bayrağını sinəsindən qopararqoparmaz işğal altına düşmüşdü.

Necə ki, Azərbaycan öz balası olan bu torpaqlara 30 il idi ki, həsrət qalmışdı, soydaşlarımız öz ata-baba yurdlarından silah burnunda qovulmuş, məcburi köçkünə çevrilib ölkəmizin müxtəlif bölgələrində torpaq həsrəti ilə yanıb-yaxılırdı, eləcə də bu torpaqlar üçrəngli bayrağımızın sinəsində dalğalanacağı günü səbirsizliklə gözləyirdi. 19-20 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror əməliyyatlarının nəticəsində Ağdərə rayonu 24 sentyabrda Azərbaycan ordusu tərəfindən azad olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Bununla da Ağdərə illərlə həsrətində olduğu azadlığına, bayrağına qovuşdu. Lakin bu gözəl yurd axı əvvəllər rayon statuslu olmuşdu. Rayonlaşması üçün bütün imkanlar yaradılmışdı. Bəs rayon olması üçün illərlə qurulub-yaradılan Ağdərə öz inzibati ərzi quruluşunu nə üçün itirməli idi?..

### Ağdərə həyata vəsiqə aldı

2023-cü ildə Azərbaycan Milli Məclisinə Ağdərə rayonunun yaradılması ilə bağlı qanun layihəsi daxil olmuşdur. Layihəyə əsasən, rayon ərazisinin Kəlbəcər, Tərtər və Ağdam rayonlarının ərazisindən təşkil edilməsi nəzərdə tutulur.

Baş Güneypəyə, Xatınbəyli, Məlikli, Orta Güneypəyə, Sırxavənd və Yeni Qaralar kənd inzibati ərazi dairələri Ağdam rayonunun, Çərəktar, Çıldıran, Dovşanlı, Heyvalı, Həsənriz, İmarət Qərvənd, Kolatağ, Qızılqaya, Qozlu, Qozlukörpü, Narınclar və Vəngli kənd inzibati ərazi dairələri Kəlbəcər rayonunun, Ağdərə şəhər, Şıxarx qəsəbə, Ağabəyyalı, Canyataq, Çardaqlı, Çaylı, Həsənqaya, Kiçik Qarabəy, Qızıloba, Aşağı Oratağ, Talış, Ulu Qarabəy və Umudlu kənd inzibati ərazi dairələri Tərtər rayonunun tabeliyindən Ağdərə rayonunun tabeliyinə verilir.

”Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1043-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bəzi məsələlər Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2023-cü il tarixli Fərmanı ilə tənzimlənir.

Fərmanda Ağdərə Rayon İcra Hakimiyyətinin fəaliyyətinin Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanının 2-ci hissəsi ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı”na uyğun olaraq təşkili məqsədilə zəruri maliyyə vəsaitinin ayrılması və inzibati bina ilə təmin olunması nəzərdə tutulur.

Daha sonra Fərmanda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Ağdərə, Ağdam, Kəlbəcər, Tərtər, Xocalı və Goranboy rayonlarının icra hakimiyyətləri ilə birlikdə ”Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1043-VIQ nömrəli Qanunu ilə yeni müəyyən edilmiş sərhədlər yerdə (naturada) dəqiqləşdirilərək mərzçəkmə işlərinin yerinə yetirilməsini bir il müddətində təmin etməsi öz əksini tapır.

Həmçinin Fərmanda ”Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 720) 1.6-cı bəndinə ”Ağdam,” sözündən sonra ”Ağdərə,” sözünün əlavə edilesi göstərilir.

Qeyd edək ki, nəzərdə tutulan müddəaların hər birinin icrası üçün bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməlidir. Beləliklə, 2023-cü il Ağdərə rayonunun həyata yenidən vəsiqə alması ili kimi Azərbaycan tarixinə şanlı sətirlərlə yazıldı.

Xoş gəldin, Ağdərə! Qarabağ, Şərqi Zəngəzurun əraziləri kimi, sən də haqqına qovuşdun. Çoxillik rayon statusunu almaqla haqqına çatdın. Hazırki vəziyyətinlə qısa bir zamanda ölkəmizin ən gözəl rayonlarından birinə çevriləcəyinə böyük ümid bəsləyirik. 2024-cü il sənin inkişaf ilin kimi yaddaşlarda qalacaq. Soydaşlarını yurduna qayıdan görmək hər birimizin qüruru olacaq. Necə ki, 2020-ci ildən üzübəri qürurlu günlərdir ki, yaşayırıq...

***Mətanət Məmmədova***

# Dünya Qərb-Şərq döyüşü astanasında

## 2024-cü il üçün siyasi proqnoz

2023-cü il də gərgin illərdən biri kimi tarixə düşdü. "Müharibə allahı" dünyanın müxtəlif qütblərində, materik və qitələrində istəyini yerinə yetirmək üçün oyununu "məharətlə" oynadı. Ukraynada müharibə tərəflərin müxtəluif manevrləri ilə davam etsə də, nəzərəçarpacaq mövqe dəyişikliyi demək olar ki, baş vermədi. Əvəzində Yaxın Şərqdə "yatmış vulkan" oyandı, Fələstindəki HƏMAS qrupunun İsrailə hücumundan sonar başlanan müharibə hər iki tərəfin itkiləri ilə bu gün də davam etməkdədir. Bu müharibə həm də Şərq-Qərb qarşıdurmasını bir az da şiddətləndirdi, hətta qarşı duran tərəflərin əsl kimliyini, hansı güclərin "ölüm maşını"nı körüklədiyini üzə çıxardı. Bəs gələn il - 2024-cü ildə nə baş verəcək? Proqnozlar nə deyir?

BMT bu gedişlə gərəksiz bir təşkilat kimi tarixin arxivinə atılacaq. Çünki, ən azından bu qurum təsir gücünü itirib, qərar və qətnamələri dişsizdir, işlək mexanizmi iri dövlətlərin istəyinə uyğunlaşdırılıb, Təhlükəsizlik Şurası daimi üzvlərin dəyənəyi rolunda çıxış edir. Son 10 ildə bu qurumun yekdil qərar verdiyini heç kim xatırlamır. Rusiya və Çinin qərarına ABŞ-Fransa-Böyük Britaniya triosunun, yaxud əksinə, üçlüyə qarşı Moskva-Pekin duetinin veto qoyacağına artıq alışqan olmuşuq. Bəs nə etməli, dünya birliyini bu oyunbazlardan necə xilas etməli? Dünyada elə bir güc yoxdur ki, bu beşliyə qarşı dursun. Amma çıxış yolu da yox deyil. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" fikirləri heç də təsadüfi deyilməyib. Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatına sədrlik edən ölkənin BMT Təhlükəsizlik Şurasında daimi üzv kimi qəbul edilməsi təklifi də dünyanı xilas etmək istəyindən irəli gəlir.







## 2024-də bizi nələr gözləyir?

Dərin ziddiyyətlər genişlənməkdə davam edir, qırılma xətləri sivilizasiya xarakteri alıb - Şərqlə Qərb arasında qlobal savaş gedir. 2023-cü ildə yer kürəsi nəyisə həddən artıq ucaltdı - son yüz ildə bu, yalnız bütün bəşəriyyətin taleyini dəyişdirən dünya müharibələrindən əvvəl baş verdi. Narahat olunası bir şey var: Ukraynada ən müasir silahlarla təchiz edilmiş nizami ordular arasında genişmiqyaslı toqquşma gedir, Amerika ilə Çin arasında güclənir, Tayvanla bağlı gərginlik qalınlaşır və nəhayət, fələstinlilərlə İsrail arasında münaqişə baş verir. Alovların işığı bu regiondan çox-çox uzaqlara düşür.

Belə görünür ki, sonra haralarda isə dəhşətlər yaşanacaq. Köklü ziddiyyətlər genişlənməkdə davam edir, qırılma xətləri sivilizasiya xarakteri alıb - Şərqlə Qərb arasında qlobal döyüş gedir. Və deyəsən, kollektiv Qərb 2024-cü ildə öz fikrincə, onlara verilən təpənin şahı tituluna qəsd edənlərə "ümumi döyüş" vermək qərarına gəlib.

## Ağ Evdə mühafizəçilər erkən dəyişdiriləcəkmi?

Gələn ilin əsas hadisəsi ABŞ-da prezident seçkiləri olacaq. Dünya nizamı təhlükə altında olacaq, çünki Ağ Evin sahibi çoxlarının inandığı kimi Amerika gücünün dağılmadığını və ölkənin nüfuzunun zəifləmədiyini sübut etməli olacaq. Sübut edilmiş arqumentlərdən istifadə olunacaq - dollar və hərbi klub. Amma bunun sonu kimin əlində olacaq?

Qoca Baydenin halı gözümüzün qarşısında pisləşir, lakin o, açıq-aşkar dözülməz bir rol oynamağa məcburdur. Onun üçün ikinci müddət qəbiristanlığa gedən yola bərabərdir. Ola bilsin ki, Baydenin şərəfli təqaüdə çıxması aprel-may aylarında baş tutsun. Sonra qanuna görə, onun yerini indiki vitse-prezident Kamala Harris tutacaq, onun reytinqi artıq prezidentin reytinqini qabaqlayır. O, seçkiyə gedəcək, Demokratların qalan müddət ərzində başqasını irəli sürməyə vaxtı olmayacaq.

Harris əsl hədiyyədir. O, zəka ilə parıldamır, xarici siyasətdən çox şey başa düşmür, lakin cilovsuz doktrinaya meyllidir. Və onun qələbə yolunda dayanan Donald Tramp adlı "Demokrat kabus"dur. İndi Amerika administrasiyasının strateqləri onu yarışdan kənarlaşdırmaq üçün hər şeyi edirlər. Onlar ittihamedici sübutlardan, təqiblərdən, hüquqi boşluqlardan istifadə edirlər. Bir sıra dövlət məmurları, Baydenin yaxın ətrafı onun ilkin seçkilərdə iştirakını qadağan etməyi birinciyə təklif edirlər. Fiziki ləğvi də istisna etmək olmaz, presedentlər də var.

Amerikalı politoloq Aleksandr Domrin deyir: "Mənim proqnozum: Trampın seçkilərdə iştirakına icazə verilməyəcək, yoxsa onlar yenə də nəticələri "dəyişdirməyə" çalışacaqlar", üç il əvvəl Kapitoliyə hücum uşaq oyunu kimi görünəcək. Və o zaman Vaşinqtonun mütləq xarici problemlərə vaxtı olmayacaq.

## Gərginlik adası

ABŞ-da prezident yalnız noyabrda, Tayvanda isə iki həftə yarımdan sonra seçiləcək. Və bütün hesablara görə, o, amerikapərəst Demokratik Tərəqqi Partiyasından namizəd, hazırkı vitse-prezident Lai Qingde olacaq. O, Çinin qızğın rəqibidir, vəzifəsini tərk edən prezident Tsay İnq-vendən daha sərt kursu təbliğ edir və ABŞ-ın dəstəyi ilə Tayvanın müstəqilliyinə nail olacağını hər yerdə təkrarlamaqdan yorulmur.

Pekin bu perspektivdən qətiyyən razı deyil. Xi Jinping ada ilə birləşmək üçün konkret tarixlər deməsə də, "Amerika kuklasının" hakimiyyətə gəlməsi bu tarixi daha da yaxınlaşdıra bilər. Axı Vaşinqton yəqin ki, indi Taypeydəki "cib" rejimini pul və silahla gücləndirməyə başlayacaq. ÇXR-in hərbi əməliyyata başlaması ehtimalı azdır, çünki bu, ABŞ-la birbaşa toqquşma təhlükəsi yaradır. Çox güman ki, Pekin Tayvanı ciddi blokada elan edəcək və ya hətta nümayişkaranə şəkildə bir neçə kiçik Tayvan adasını işğal edəcək. Yeri gəlmişkən, bəlkə də Filippində ilk "təcrübə" - çinlilər Cənubi Çin dənizindəki bir neçə mübahisəli adalar üzərində də onlarla münaqişə yaradırlar.

Tayvanın blokadası qabaqcıl mikroçiplərin qlobal ticarətini iflasa uğradacaq (bunların 90%-i adada istehsal olunur). ABŞ və müttəfiqləri buna dözməyəcəklər və o zaman qarşıdurma məntiqi istər-istəməz qaynar fazaya gətirib çıxaracaq - ən kiçik qığılcım kifayət edəcək. Amerikalılar bunu başa düşürlər və hələ resursları olsa da, intensiv şəkildə hazırlaşırlar.



## Yağ yenidən qan kimi qoxuyacaq

Ancaq resurslar getdikcə daha da azalır və dövlətlər onları ora-bura xərcləyirlər. Ukraynaya tökülən yüzlərlə milyardlar strateji qələbə gətirmir. Vaşinqtonun indi əmin olduğu kimi, onlar bunu gətirə bilmədilər. O, əlbəttə ki, Kiyevi tərk etməyəcək, lakin kömək çayı dayaz axmağa davam edəcək. Çünki Çinlə mübarizə (bütün aspektləri, xüsusən də iqtisadi) trilyonları tələb edəcək. Lakin ABŞ-ın Milli Təhlükəsizlik üzrə köməkçisi Ceyk Sullivanın dediyi kimi, administrasiyanın "sehrli pul qazanı" yoxdur. Gələn il Ukrayna mövzusu tədricən qlobal siyasi gündəmdən kölgəyə düşəcək. Amerika Zelenski və şirkətinin qayğısını artıq dağılmağa başlayan Avropa Birliyinə keçirəcək.

İsrailin əbədi problemi var. Qəzza yanır, Livan alovlanmaq üzrədir. İsrail-Fələstin qarşıdurmasında NATO üzvü olan Türkiyə faktorunun oynadığı önəmli rolu da unutmaq olmaz. Yəmən husiləri Qırmızı dənizdə Qərbin ticarət nəqliyyatını dayandırıb. Birləşmiş Ştatlar fitnəkarları məhv etmək əmri ilə oraya döyüş gəmiləri göndərdi. Artıq yanvar ayında biz bu sərəncamın yerinə yetirilib-yetirilmədiyini öyrənəcəyik. Axı İran husilərin arxasındadır və bu, Fars körfəzidir - "yaşıl" iqtisadiyyatla bağlı bütün söz-söhbətlərə baxmayaraq, ehtiyacı yalnız artan neftdir.





## Biz nə gözləməliyik?

Biz yalnız həyati maraqlarımıza əsaslanaraq, uzun müddət oynamağa davam etməliyik. Yaxın vaxtlara qədər Qərbin Rusiya ilə bağlı minimum proqramı belə idi: tərksilah olun və bizi öz sərhədləri daxilində bağlayın. Maksimum vəzifə onu Çinə qarşı qoymaq idi. Bunun tam əksi oldu. İndi onlar Rusiyanı yeni sanksiyalarla cilovlamağa, Pekinlə, xüsusən də hərbi sahədə daha da yaxınlaşmanın qarşısını almağa, ən əsası isə elan edilən çoxqütblü dünyaya keçidi dayandırmağa çalışırlar ki, bu ideya getdikcə daha çox rəğbətlə qarşılanır.

ABŞ-da və ya Avropada kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq, Qərb siyasətçilərinin hər hansı güzəştinə, hətta sağlam düşüncəsinə arxalanmağa ehtiyac yoxdur. Dünyanın qalan ölkələri həmişə onların inkişaf modelinə siyasi və mənəvi alternativ olub. Belə də qalacaq.

***V.VƏLİYEV***

# Dağlar arxasında sülh: Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyət necədir?

## Əcnəbi ekspertlərin şərhi

**Son vaxtlar Ermənistan-Azərbaycan sülh müqaviləsinin tezliklə bağlanmasının perspektivləri haqqında çox danışılır. Maraqlıdır, bu beynəlxalq əhəmiyyətli sənəd imzalanacağı təqdirdə onun prioritetləri nədən ibarət olmalıdır? Məsələn, tərəflər arasında siyasi məsələlərin həllini təmin etmək və münaqişənin yenidən başlanmasının qarşısının alınmasına zəmanət vermək realdırmı?**



Məsələn, Ermənistan tərəfdən məlumat var idi ki, İrəvan və Bakı sülhün imzalanması üçün artıq 3 əsas prinsip- ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsi və regional kommunikasiyaların açılması barədə razılığa gəliblər.

Əslində, dəfələrlə deyildiyi kimi, beynəlxalq hüquqda dövlətlərarası müqavilələr üçün dəqiq çərçivə yoxdur və tərəflər qarşılıqlı razılaşma əsasında sazişin əhatə etdiyi məsələlərin dairəsini özləri müəyyən edə bilərlər. Son vaxtlar belə bir fikir də yayılıb ki, böyük ehtimalla ilk növbədə Azərbaycan və Ermənistan arasında silahlı münaqişənin sonunu həll edəcək çərçivə sülh müqaviləsi imzalanacaq. Orada tərəflər bir-birinin ərazi bütövlüyünü qarşılıqlı olaraq tanıyır, bir-birlərinə qarşı ərazi iddiaları irəli sürməmək və bütün məsələləri sülh yolu ilə həll etmək öhdəliyi götürür, müəyyən xəritələr üzrə sərhədin delimitasiyası və demarkasiyası prinsiplərini razılaşdırır, nəqliyyat kommunikasiyalarının bərpasını elan edir və bir-birinin əraziləri ilə daşımaların təhlükəsizliyinə təminat verir. Xatırladaq ki, hələ 2022-ci ildə Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması üçün 5 əsas prinsip açıqlamışdı:



Bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, beynəlxalq sərhədlərinin toxunulmazlığının və siyasi müstəqilliyinin qarşılıqlı tanınması. Dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının və gələcəkdə belə iddialarla çıxış etməmək üçün hüquqi öhdəliyin qarşılıqlı təsdiqi. Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyini təhdid etməkdən, siyasi müstəqilliyə və ərazi bütövlüyünə qarşı təhdid və güc tətbiq etməkdən, habelə BMT Nizamnaməsinin məqsədləri ilə bir araya sığmayan digər hallardan çəkinmək. Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması. Nəqliyyat və kommunikasiyaların açılması, digər müvafiq kommunikasiyaların və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın yaradılması.

Beləliklə, Bakı ilə İrəvan arasında potensial sülh müqaviləsinin məzmunu nə ola bilər? Nə qədər tez nəticə əldə etmək olar? Bunun yaxın gələcəkdə baş verməsi ehtimalı yüksəkdirmi? Çoxdan gözlənilən bu hadisəyə hansı hallar mane ola bilər?

Bu sualları tanınmış əcnəbi şərhçilər "Caliber" analitik mərkəzinə cavablandırıb. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Qazaxıstandan olan siyasi müşahidəçi Qaziz Abışev qeyd edir ki, təbii ki, yekun sülh müqaviləsi əslində Ermənistan torpaqlarına iddialı olmayan Azərbaycana sərf edir.

"Yekun sülh müqaviləsi Ermənistanın gələcəkdə (güclər balansı dəyişərsə) Azərbaycana qarşı iddialar irəli sürmək perspektivlərini sarsıdacaq. Bu və ya digər şəkildə, mövcud güc balansını nəzərə alsaq, Azərbaycanın müqavilə bağlamaq üçün lazımi və kifayət qədər şərtləri var:

- Sovet inzibati sərhədləri daxilində, yəni Azərbaycanın tərkibində Qarabağla tam suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması;

- üçüncü tərəflər- Rusiya, Türkiyə və başqaları tərəfindən bu sərhədlərin tanınması haqqında saziş;

- döyüş əməliyyatlarının nəticələrinə görə iddiaların olmaması haqqında razılaşma;

- sərhəd zonalarında silahlanmanın məhdudlaşdırılmasına dair saziş", - ekspert öz baxışını açıqlayıb. Həmsöhbətimiz vurğuladı ki, bu gün üstünlük Azərbaycan tərəfindədir. Tam proseduru- imzalanmanı və ratifikasiyanı tələb edərək, indi təzyiq göstərilməlidir- Abışev bildirib.

Siyasi-Hüquqi Tədqiqatlar Mərkəzinin (Bişkek) direktoru Tamerlan İbrahimov beynəlxalq hüququn müqavilələr üçün heç bir ciddi tələblər diktə etməməsi ilə bağlı qeydi tamamilə düzgün adlandırıb.

"Razılığa gələn tərəflər bu cür razılaşmaların məzmununu müəyyən edən bir sıra xarici və daxili amillərdən çıxış edirlər. Ona görə də Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin yekun variantında konkret nələrin olacağı barədə dəqiq fikir söyləmək çətindir, ancaq spekulyasiya etmək olar".

Buna baxmayaraq, suverenlik məsələsinin hər iki tərəf üçün fundamental əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, ehtimal etmək olar ki, onların əraziləri üzərində suverenliyin qarşılıqlı tanınması bu mətndə mütləq yer alacaq,- İbrahimov təklif edib.

"Bundan başqa, gələcəkdə qarşılıqlı ərazi iddialarından imtina məsələsi də sazişə daxil ediləcək. Bu, hər iki ölkə üçün əsasdır, çünki gələcəkdə silahlı münaqişələrin təkrarlanmaması üçün hüquqi təminatlar yaradır.

Bütün digər məsələlər humanitar xarakter daşıyır, ünsiyyət, vətəndaşlıq və s. həm də vacibdir, lakin onlar üzrə razılaşmaların əldə edilməsi sülh müqaviləsinə daxil edilə bilər və ya gələcək danışıqlara təxirə salına bilər", - Qırğızıstan eksperti etiraf edir.

Kiyev Dünya Siyasəti İnstitutunun direktoru Evgen Maqdanın düşünür ki, " kompromis hər iki tərəf narazı olduqda olur".



"Düşünürəm ki, bu formula Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üçün işləməlidir. Çünki indiki vəziyyətdə kimsə yorğanı lazımsız yerə öz üzərinə çəkərsə, yekun sənədin imzalanması davamlı olaraq təxirə salınacaq.

Azərbaycan Qarabağa nəzarəti bərpa etməklə öz ərazi bütövlüyünü bərpa edə bilib və çox güman ki, ən azı simvolik mənada oraya erməni əhalisinin qaytarılmasının mümkünlüyü barədə düşünməli olacaq. Düşünürəm ki, bu da siyasi razılaşmanın elementinə çevrilə bilər. İnsanları orada təhlükəsiz hiss etməsələr, hətta ata-baba yurdlarına qayıtmağa məcbur edə bilməzsiniz", - institut direktoru deyir.

Onun fikrincə, "Rusiya Ermənistanla Azərbaycan arasında siyasi razılaşmanı pozmaq istəyir".

"Çünki onlar başa düşürlər ki, Bakı ilə İrəvan arasında razılaşma Moskvanın və onun Cənubi Qafqazdakı mövqelərinin zəifləməsi, ardınca isə rusların Gürcüstandan mümkün çıxarılması demək olacaq. 2024-cü ildə Gürcüstanda keçiriləcək parlament seçkiləri isə bu prosesin tətikçisinə çevriləcək.

Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri həm də o mənada maraqlıdır ki, cənab Əliyevə bu sülh müqaviləsi bir arqument kimi, onun qələbəsinin daha bir sübutu kimi lazımdır, o, Heydər Əliyevin işini davam etdirib və haqlı olaraq, prezident sükanına sahib olmalıdır.

Mən bilmirəm ki, Avropa İttifaqı və ABŞ-ın Cənubi Qafqazda öz maraqlarının təşviqi və müvafiq olaraq Azərbaycan və Ermənistanın maraqlarının müdafiəsi istiqamətində hərəkətləri nə dərəcədə əlaqələndiriləcək. Həm də siyasi razılaşmadan çox şey gözləməyək. Bu, məsələn, hərbi personalın mübadiləsi üçün son xoşməramlı jestdən əvvəl baş vermiş hərbi əməliyyatların dayandırılmasının simvolu olacaq. Bu, beynəlxalq səviyyədə qarşılıqlı güzəştdir. Həmçinin, Xəzər regionunda sabitliyin asılı olacağı jestdir. Düşünürəm ki, bu, Vaşinqtonda və digər Qərb paytaxtlarında aydın şəkildə başa düşülür", - deyə Maqda yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

## "Hər iki dövlətin münasibətləri inkişaf etdirməyə marağı var"



"Çin dünyada birinci yeri tuta biləcək ən böyük iqtisadiyyata sahib olan bir dövlətdir. Bununla yanaşı, Çinin çox fərqli bir siyasəti var. Azərbaycan digər dövlətlərlə olduğu kimi, Çinlə də qarşılıqlı suverenliyin tanınması prinsiplərinə əməl etməklə balanslaşdırılmış münasibətlər qurur. Çinin "Bir kəmər bir yol" layihəsi çərçivəsində Azərbaycan da aktiv iştirak edənlər sırasındadır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, digər dövlətlərdən fərqli olaraq Azərbaycan öz daxili ərazilərində, hətta bəzi qonşu ölkələrdə də məhz bu kommunikasiyaların qurulması layihəsini özü həyata keçirib: "Yəni, burada Çin maliyyəsinin heç bir iştirakı olmayıb. Bu da Azərbaycanı layihə çərçivəsində daha müstəqil və bərabərhüquqlu etməkdədir. Bu baxımdan hazırda Çin "Bir kəmər, bir yol" layihəsi daxilində Orta Dəhlizin inkişaf etdirilməsinə böyük maraq göstərir. Çünki bu faktiki olaraq ən real alternativ yol kimi dəyərləndirilməkdədir. Çinin Mərkəzi Asiya dövlətlərində çox böyük sərmayələri var. Bu baxımdan Azərbaycan Çin üçün xüsusi maraq kəsb edir. Bununla yanaşı, 30 illik işğal dövründə Çin hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanımış və suveren hüquqlarını dəstəkləmişdir. Azərbaycan bu proseslərdə həmişə Çinin dəstəyini hiss edib. Ona görə də mütəmadi olaraq Çin və Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsi normal bir haldır. Çünki hər iki dövlətin əlaqələri inkişaf etdirməyə marağı var".

Deputat sözlərinə davam edərək qeyd edib ki, hər iki dövlətin liderləri arasında olan dostluq münasibətləri də bu inkişafı biraz da sürətləndirir: "Dekabr ayının 24-də Çin Xalq Respublikasının sədrinin Azərbaycan Prezidentinə ünvanladığı məktubu bu qəbildən hesab edirik. Bu, Prezident İlham Əliyevə hörmət, Azərbaycan xalqına olan xoş münasibəti göstərir. Düşünürəm ki, növbəti illərdə də biz bu münasibətlərin inkişafını müşahidə edəcəyik. Çünki bu inkişaf üçün çox əla bir zəmin var".

***Ləman Sərraf***

# Sankt-Peterburqdakı görüşlə bağlı DETALLAR









**Dəfələrlə şahidi olmuşuq ki, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyada keçirilən tədbirlərdə, görüşlərdə iştirak etməkdən boyun qaçırıb və iştirak da etməyib. Bunu hətta nümayişkaranə şəkildə etdiyi də bəlli idi. Bəlli idi ki, Qərbə göstərmək üçün Rusiyaya getməkdən, tədbirlərdə, görüşlərdə iştirak etməkdən imtina edir və özünün də, ölkəsinin də Rusiyanın tərəfində olmadığını göstərməyə çalışırdı. Hətta bununla müəyyən dividentlər əldə edəcəyi qənaətində idi, amma hadisələrin gedişi fərqli məqamları ortaya çıxardı və Nikol Paşinyan bu dəfə Sankt-Peterburqa yollanmalı oldu.**

Məlum olduğu kimi, sanksiyalara məruz qalan malların əhəmiyyətli hissəsi Ermənistan vasitəsilə Rusiyaya ixrac edilir. Doğrudur, Rusiya bununla həmin o sanksiyalara məruz qalan mallarla təchiz olunur və sanksiyaların arzuolunmaz nəticələrindən yaxa qurtara bilir. Amma ermənilər də etiraf etməlidirlər ki, sanksiyalara məruz qalan malların Rusiyaya Ermənistan vasitəsi ilə ixrac edilməsi Ermənistanın özü üçün də maraqlıdır. Çünki bu yolla Ermənistan müvafiq dividentlər əldə edə bilir. Diqqətə çatdıraq ki, sanksiyalara məruz qalan malların Ermənistan vasitəsi ilə Rusiyaya ixrac edilməsi hər iki ölkə arasındakı ticarət dövriyyəsinin ötən illə müqayisədə 45 faiz artmasına səbəb olub. Hər halda, iqtisadiyyatı yox dərəcəsində olan ölkə üçün bunun nə demək olduğunu müəyyən etmək heç də çətin deyil. Yəqin, elə Paşinyan hakimiyyəti də bunun fərqindədir və başa düşür ki, Rusiya ilə münasibətləri korlamaq Ermənistan üçün heç də arzuolunan nəticələr vəd etmir. Çox güman ki, erməni baş nazirin bu dəfə daşı ətəyindən tökərək, Rusiya yollanmasının səbəblərindən biri də bu imiş. Lakin qeyd edək ki, Paşinyanın Rusiyaya yollanmasının səbəbi təkcə bundan ibarət deyil və səbəblər yetərincədir.

Görünür, indi erməni elitası bəzi məsələlərlə bağlı tərəddüd içərisindədir. Əvvəla, Ukraynanın əks-hücumunu Rusiyanın cilovlaya bilməsi və rusların uzunmüddətli müharibəyə daha çox hazır olması, digər tərəfdən də, həm ABŞ, həm də Avropanın artıq Ukraynanı lazımi şəkildə dəstəkləmək niyyətlərinin olmaması barədə getdikcə daha açıq fikirlərin səsləndirilməsi erməni cəmiyyətində rezonans doğurub. Yaxın vaxtlara qədər Rusiyanın iştirakı ilə keçirilən sammitlərə məhəl qoymayan Paşinyanın artıq gərginliyinin səbəbi bəlli olur. Bəlli olur ki, Qərbin istənilən anda arxa, dayaq, dəstəkçi rolundan imtina etməsinin real şahidi olan Paşinyan heç də rahatlıq tapa bilmir. Paşinyanın narahatlığı daha çox Qərblə Rusiya arasında seçimlə əlaqədar deyil, artıq Rusiyanı seçdiyi zaman nə edəcəyi sualı ilə bağlıdır. Qərbin Ukraynaya dəstəyinin əvvəlcə azalması, sonra da demək olar ki, yox dərəcəsinə enməsi, həmçinin cəbhə xəttində Rusiyanın müəyyən mövqelərdə irəliləyişlər əldə etməsi erməni baş nazirinin fikirlərini də, planlarını da alt-üst etdi və Nikol Paşinyan Rusiyaya getməli oldu. Paşinyanın nəhayət Sankt-Peterburqa yollanması, onu deməyə əsas verir ki, onun, Qərb və Rusiya olmaqla iki stulda oturması getdikcə çətinləşir və hər tərəf qərar tələb edir deyə gərginliyi də başadüşüləndir.

Təsadüfi deyil ki, Ermənistanda da onun məhz Rusiyaya getməsi birmənalı qarşılanmayıb. Hətta tənqid belə edənlər də az deyil və bundan sonra öz gedişinə görə Qərb qarşısında nə cavab verəcəyini sual edənlər var. "Paşinyan bütün bunlar barədə Mişel, Şolts və Makrona nə deyəcək?", - deyən Ermənistan Respublika Partiyasının İcra orqanının nümayəndəsi, Ermənistan parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov sosial şəbəkə hesabında fikirlərini açıq şəkildə paylaşıb. Şarmazanov birbaşa Paşinyana ünvanlanıb və Qərbdən "icazəsiz" Rusiyaya getməsi, Orada Azərbaycan Prezidenti cənab İlham Əliyevlə görüşməsi və hətta oranı birlikdə tərk etməsi barədə sorğu-sualla bağlı onlara necə cavab verəcəyini sual edib. "Nikol Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Almaniya kansleri Olaf Şolts və Fransa prezidenti Emmanuel Makrona Sankt-Peterburqda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü barədə nə deyəcək? "Bu mənim günahım deyil, özü gəldi" deyəcək? Görünür, Qərbdən danışıqlar brokeri rolunu Rusiya "ələ keçirməyə" çalışır. Əliyev və Paşinyan il boyu Qərbin vasitəçiliyi ilə danışıqlar apardılar, Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdılar, amma Sankt-Peterburqda görüşdülər. Sovet istehsalı olan "Brilyant əl" filmindəki kimi "Mən günahkar deyiləm, o, özü gəldi" deyəcək?, deyə sual edən Eduard Şarmazanovun erməni baş nazirini birbaşa hədəfə alması göstərir ki, Nikol Paşinyanın Rusiyaya gedişi heç də erməni cəmiyyətində birmənalı qarşılanmayıb və bunu bilən Vovayeviçin həyəcanının, gərginliyinin digər bir səbəbi də artıq bəlli olur.

Paşinyanın bu dəfə Rusiyaya yollanmasına təkcə erməni cəmiyyətindən reaksiya verilməyib və bununla bağlı digərlərinin də fikirləri diqqəti cəlb edir. Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markovun fikrincə, Paşinyan Peterburqa yollanmaqla Ermənistanın hələ tam Qərbin olmadığını Qərbə göstərmək istəyib. "Ermənistan mətbuatı yazır ki, Putin Paşinyandan münasibətlərin gərginləşməsinə aydınlıq gətirməsini istəyir. Düşünürəm ki, Putin münasibətlərin pisləşməsinin səbəblərini çox yaxşı bilir. Bu səbəblər Ermənistanın Rusiyadan Azərbaycanla münaqişədə onun tərəfini tutmasını tələb etməsi və Paşinyanın Rusiyadan Qərbə, Moskvanın düşmənləri olan Fransa və ABŞ-a tərəf getməsi ilə bağlıdır. Hansı ki, Paşinyan bunu çoxdan arzulayır. Məncə, əslində, bu sammitdə Paşinyanın Rusiyadan nə qədər uzağa getməyə hazır olduğunu Putin öyrənmək istəyib. Putin bilmək istəyir ki, Ermənistan bu addımı atacağı təqdirdə, Rusiya ona nə qədər sərt cavab verə bilər. Lakin hələ ki, Paşinyanın nə etmək istədiyi anlaşılan deyil, ya da ki, o, bu yolla Rusiyanı şantaj etmək istəyir. Digər tərəfdən də, Paşinyan Peterburqa yollanmaqla Qərbə göstərmək istəyir ki, Ermənistan hələ tam Qərbə məxsus deyil. Bunun baş verməsi üçün, yəni Ermənistanın tam Qərbə məxsus olması üçün Qərb çox çalışmalıdır, Ermənistanı daha çox dəstəkləməlidir", - deyə rusiyalı ekspert vurğulayıb.

Rusiya mətbuatında da Sankt-Peterburq görüşü, Nikol Paşinyanın orada olması, həmin görüşdən imtina etməməsi barədə fikirlər səsləndirilir. Qeyd olunur ki, sentyabrın 20-də Azərbaycan Xankəndidə və Qarabağ iqtisadi rayonuna bitişik torpaqlarda konstitusiya quruluşunu tam bərpa etdikdən, Azərbaycanda separatçı rejim tamamilə aradan qaldırıldıqdan sonra vasitəçilər heç bir platformada iki dövlətin liderlərinin görüşünü təşkil edə bilməyiblər və nəhayət onlar Rusiyada görüşüblər. Həmçinin xüsusilə vurğulanır ki, cənab İlham Əliyevin bu görüşdə Azərbaycanın daimi sülh arzusunu nümayiş etdirməsi kameralar tərəfindən lentə alınıb. Rusiya mətbuatında qeyd olunur ki, Ermənistan-Azərbaycan danışıqlarında Vaşinqtonun və Brüsselin təşəbbüsü ələ keçirdiyi görüntüsü olsa da, onlar Ukraynaya genişlənmə və yardım məsələlərində geri çəkildikdən sonra Kreml irəli gedə bilib və 2023-cü il sentyabrın 20-dən sonra Əliyevlə Paşinyan arasında ilk görüşün Rusiya ərazisində baş tutması Rusiya üçün son dərəcə vacibdir. Həmçinin qeyd olunur ki, bu görüş Vladimir Putinin vasitəçiliyi ilə yekun sülhün imzalanması üçün başlanğıc nöqtəsi ola bilər və Dmitri Peskovun da məhz, "Ermənistan və Azərbaycan sülh müqaviləsini yekunlaşdırmağa hazırdırlar", - deyə qeyd etməsi heç də təsadüfi deyil.

Diqqəti ən çox cəlb edən məqam əlbəttə, ondan ibarətdir ki, Moskva ilə İrəvan arasında münasibətlərin gərginliyinə baxmayaraq, Ermənistanın baş naziri sammitə gəlməyə bilməyib. Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin dosenti, erməni əsilli Gevorq Mirzəyan belə news.ru-ya açıqlamasında Paşinyanın sammitdə iştirakının motivini Rusiyadan tamamilə uzaqlaşmağın mümkünsüzlüyü ilə izah edib. "Hərbi-siyasi münasibətləri Qərbin və başqasının hesabına ən azı illüziyalı perspektivlər hesabına diversifikasiya etmək istəyinə baxmayaraq, o, iqtisadi əlaqələri şaxələndirə bilməz, çünki bu baxımdan Rusiyaya heç bir alternativ yoxdur", - deyə ekspert fikirlərini izah edib. O, hətta Rusiyanın Qərblə gərgin münasibətlərini şərh edərkən qeyd edib ki, rəsmi Moskva heç kiminlə rəqabət aparmır və heç kimə nəyi isə sübut etməyə çalışmır və Rusiya tərəfi öz periferiyasında, yəni nəzarət etməli olduğu regionda özü üçün ən vacib inteqrasiya proseslərini həyata keçirməyə hazır olduğunu bir daha nümayiş etdirir.

Göründüyü kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın Sankt-Peterburqdakı görüşə yollanması, görüşdə iştirakı ilə bağlı detallar, bir sıra məqamlar hər kəs üçün maraqlıdır və bunun səbəbsiz olduğunu düşünən yoxdur. Sözsüz ki, Rusiyada olan görüşlərdən son zamanlar imtina edən erməni baş nazirin bu dəfə, yəni sonuncu dəfə iştirakdan boyun qaçırmaması, yaxud da boyun qaçıra bilməməsi ilə bağlı detallar da diqqətdən yayınmayıb. Hər halda, görünən odur ki, bundan sonra danışıqlardan Ermənistan tərəfinin yayınması istənilən vəziyyətdə həmin ölkənin özü üçün arzuolunan deyil və birbaşa ziyanınadır. Digər tərəfdən də, axı Ermənistan tərəfinin seçim imkanı məhduddur və sülh prosesinə mane olmaq haylar üçün qətiyyən sərfəli deyil. İstənilən halda, erməni baş nazirinin Rusiyaya getmək, oradakı görüşdə iştirak etmək məcburiyyətində qalması Azərbaycanın növbəti diplomatik qələbəsidir.

***İnam Hacıyev***

# 2024-CÜ İLDƏN GERİYƏ BAXARKƏN

## Son 20 il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsidir




2023-cü ilin qarşıdan gələn yeni 2024-cü ilə təhvil verməsinə sayılı günlər qalıb. Bu, bir real faktdır ki, hər il başa çatarkən ”növbəti ilə hansı uğurlarla qədəm qoyuruq” sualını qarşıya qoyuruq və bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurları bir daha təhlil etmək zərurəti duyulur. Və xalqımız Azərbaycanın tarixinə uğurlu və Qələbə Zəfərli illər kimi daxil olan 2020, 2021, 2022 və 2023-cü illər kimi 2024-cü ilin də böyük sevinc və qələbələr ili kimi xeyirli, bərəkətli, işğal olunmuş torpaqlarımızda - Qarabağımızın cənnət məkanına çevriləcəyinə və keçmiş məcburi köçkünlər ”Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. Bu, gəlişi gözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Çünki əsl siyasət konkret, real iş görməkdən ibarətdir. Son 20 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar və ən əsası isə 2020-ci ildə tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsi Ali Baş Komandanımızın uğurlu ”Dəmir yumruq” əməliyyatı ilə bütün dünyaya həm də bacarıqlı, qətiyyətli Sərkərdə olduğunu, xalq-ordu-dövlət birliyini isbatladı. Hər ili uğurlu olan növbəti 2023-cü ilin .

### ”HEYDƏR ƏLİYEV İLİ” ELAN OLUNMASI VƏTƏNİNİ SEVƏN, TARİXİNİ DƏRK EDƏN HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN OLDUQCA SEVİNCLİ HADİSƏ OLDU

2023-cü ilin əvvəlki illərdən fərqli olaraq daha əlamətdar olması Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində ”Azərbaycan Respublikasında 2023-cü ilin ”Heydər Əliyev İli” elan edilməsi haqqında” imzaladığı tarixi Sərəncamı oldu. Əslində, xalqımız bu qərarı çoxdan və çox böyük səbirsizliklə gözləyirdi desək, düşünürəm ki, hisslərimizin səmimiyyətini, sevincimizin həddini-hüdudunu daha da düzgün ifadə etmiş olarıq. Çünki ümummilli lider Heydər Əliyevin 100 illik yubileyiin məhz 2023-cü ilə təsadüf etməsi tarixi hadisədir. Sərəncamda deyilir: ”Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.

Bəli, ulu öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir və zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur. Və Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2023-cü ili - ”Heydər Əliyev İli”ni də uğurla, yüksəlişlə, həmrəyliklə, quruculuqla başa vurdu.

Belə ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Prezident İlham Əliyev tərəfindən dəqiqliklə realizə edilən uzaqgörən siyasət, Xalq-İqtidar-Ordu möhkəm birliyi nəticəsində əldə etdiyimiz böyük Zəfərin ardından Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, Azərbaycanın öz torpaqlarında uğurla reallaşdırdığı antiterror əməliyyatları və Prezident İlham Əliyev cənablarının: ”Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Deməşəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl deməşəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Deməşəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur” fikirlərini vurğulaması, məhz 2023-cü ilin ”Heydər Əliyev İli” olması tarixi hadisədir. Bəli

### ONA ÖZÜ QƏDƏR İNANAN ULU ÖNDƏRİN ”ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ AZƏRBAYCAN YOXDUR” - ARZUSUNU REALLAŞDIRAN QALİB LİDER

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”.

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlıda böyük sevinc və qürur hissləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur. Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.

### SƏRKƏRDƏLİYİ İLƏ ÇOXLARININ QEYRİ-MÜMKÜN HESAB ETDİYİ QARABAĞ MÜNAQİŞƏSİ CƏMİ 44 GÜNƏ HƏLL OLUNDU

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində söyləyib ki, İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Dövlətimizin başçısı deyib ki, bu, qəhrəmanlıq dastanıdır, bu, misli görünməmiş qəhrəmanlıqdır: ”İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi”.

Bəli, İkinci Qarabağ müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Və qələbəmizin hər ilini böyük uğurla başa vururuq. Böyük qürur hissi keçiririk ki, bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən son 20 il ərzində həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz! Çünki bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında da göstərib: ”Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır” 2023-cü il, 15 oktyabr tarixində Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində müqəddəs üçrəngli bayrağımızı qaldırdı. Bu şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsidir. Dövlətimizin başçısı gərgin əməyi, qətiyyəti, iradəsi ilə ötən 20 illik fəaliyyətində göstərdi ki, O, xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarındadır.

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləyib ki, özünü ”prezident” adlandırmış üç təlxək bax, burada (Xankəndidə - red.) oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq: ”Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl - 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il”, - deyən dövlətimizin başçısı xatırladıb ki, üç il bundan əvvəl Şuşada bizim Bayrağımızı qaldırdıq.

Prezident İlham Əliyev, həmçinin bildirib: "Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik".

"Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası - red.) oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir",- deyən dövlətimizin başçısı bildirib.

Bəli, Azərbaycan Prezidentinin Xankəndi müraciəti mərkəzi hakimiyyətin Qarabağın gələcəyinə, Ermənistanla normallaşma münasibətinə ismarışdır. Prezident İlham Əliyevin 20 illik hakimiyyəti Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinə uzanan, ölkəni qarışdıran əlləri kəsdi. Azərbaycanın qanayan yüzillik yarası sağaldı...Bir sözlə, bu gün Xankəndidə dalğalanan üçrəngli bayrağımız hər birimiz üçün xoşbəxtlik, fərəh, qürur, ləyaqət, fəxarət salnaməsidir. "Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

## ANTİTERROR TƏDBİRLƏRİNİN BAŞLANMASI VƏ UĞURLA BAŞA ÇATMASI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN ÖZ SUVERENLİYİNİ BƏRPA ETDİ

Prezident İlham Əliyev xalqa müraciətində antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edərək deyib: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti qətiyyətli qələbə qazandı, işğalçını əzəli torpaqlarımızdan "iti qovan kimi qovdu". Eyni zamanda, bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək, sözün əsl mənasında, böyük və qəhrəman xalq olduğunu bir daha sübut etdi, misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməsi və son dərəcə mürəkkəb, çətin müharibə şəraitində hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və Vətən torpağı uğrunda şəhid olan bütün oğul-qızlarımızın qisasını aldı. Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi.

## PREZİDENTLİK FƏALİYYƏTİNİN 20 İLİ ƏRZİNDƏ SÖZÜ İMZASI QƏDƏR DƏYƏRLİ VƏ KEÇƏRLİ OLAN GÜCLÜ SİYASİ LİDER OLARAQ HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞININ PREZİDENTİ OLDUĞUNU TƏSDİQLƏYİR

Bəli, sözü imzası qədər dəyəyərli və keçərli olan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. Belə ki, bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.

Deyilənləri təsdiqləyən amil 2023-cü ilin iyun ayında dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra xərclər 3 milyard manat artırılaraq 36 milyard manata çatdırılmasıdır ki, bu da müstəqil Azərbaycanın tarixində rekord göstəricidir. Xərclərə əlavə edilən 3 milyard manatın təqribən 1,8 milyardlıq hissəsinin Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə ayırlması isə belə bir həqiqətin növbəti təsdiqi oldu ki, işğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın milli prioritetidir. Prezident İlham Əliyev cənablarının ilk prezident seçilməsindən ötən 20 il ərzində Azərbaycan sürətli inkişaf və tərəqqi yolunda uğurlu inkişaf yolunda davam etməkdədir. Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən üç il ərzində işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!

## AZƏRBAYCANA İNAMIN, ETİMADIN TƏZAHÜRÜ, ÖLKƏMİZİN VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNABLARININ QLOBAL MİQYASDA NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Bugünkü Qalib Azərbaycan həmin inamın, etimadın, liderliyin təqdimatıdır. Son 20 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qlobal miqyasda nüfuzunun göstəricisidir. Və bu gün Azərbaycan dünyada özünəməxsus milli inkişaf modeli ilə tanınır. Prezident İlham Əliyev bildirir ki, qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Bütün bunlar son 20 ildə Qalib Liderimiz Prezident İlham Əliyevin apardığı uğurla, qətiyyətlə Azərbaycanın haqq, ədalət təfdarı olduğunun göstəricisidir. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb.

## AZƏRBAYCANIN SƏDRLİYİ DÖVRÜNDƏ QOŞULMAMA HƏRƏKATININ BEYNƏLXALQ ALƏMDƏ NÜFUZU DAHA DA YÜKSƏLİB

Məlum olduğu kimi, Qoşulmama Hərəkatı dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. 2019-cu ildən etibarən Azərbaycan Qoşulmama Hərəkatının üzv ölkələrinin yekdil qərarı ilə üç il müddətinə QH-yə sədrliyi həyata keçirməyə başladı. Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı. Azərbaycan Prezidenti İlham Əliyevin sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük uğura imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq müstəvidə davamlı və ardıcıl şəkildə irəli sürdüyü təşəbbüs və təkliflər daim həm Hərəkat, həm də digər ölkələrin geniş dəstəyini qazanıb.

Ölkəmizin Hərəkata sədrliyinin ilk illəri COVID-19 pandemiyası ilə əlaqədar dünyanı sarsıdan qlobal səhiyyə böhranı dövrünə təsadüf etsə də, Azərbaycan özünün sədrlik gündəliyini çevik və effektiv şəkildə yeni reallığa uyğunlaşdırdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı pandemiya ilə mübarizədə qlobal lider rolunu öz üzərinə götürdü və dünya ictimaiyyətini bu təhdidlə mübarizədə səfərbər etdi. 2020-ci ilin mayında Hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif 150-dən çox ölkə tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Yetmişdən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu. Azərbaycanın Hərəkata sədrliyi dövründə həyata keçirdiyi ən önəmli fəaliyyətlərdən biri peyvənd millətçiliyinə qarşı mübarizə aparması oldu. Təsadüfi deyil ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən həm BMT İnsan Hüquqları Şurasında, həm də Baş Assambleyada "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr qəbul edildi.

Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmadı. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərdi. Təbii ki, bu ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Bu, həm də Azərbaycanın keçdiyi inkişaf yolunun, əldə etdiyi iqtisadi nailiyyətlərin göstəricisidir. Çünki vaxtilə maliyyə yardımı alan Azərbaycan artıq özü fəal donor ölkəyə çevrilib.

## COP 29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİ ÖLKƏMİZİN BEYNƏLXALQ NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Bu gün Azərbaycan müxtəlif istiqamətlər üzrə bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbirlər ölkəmizin tanınması, onun mədəniyyəti, tarixi haqqında məlumatların əldə olunması, iqtisadi imkanlar, gələcək layihələrin və əməkdaşlıq perspektivlərin dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq aləmin hər bir üzvünün razılığı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ölkəmizin alternativ enerjiyə keçiddə öz imkanlarını nümayiş etdirmək üçün mühüm platformadır. Əlbəttə ki, bu, səbəbsiz deyil. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, onun prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır. Ölkə başçısının apardığı müstəqil siyasət, bütün qərar və addımların beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsi, əməkdaşlıq münasibətlərində dürüstlük, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası və digər amillər bütövlükdə Azərbaycana olan münasibəti müsbət mənada dəyişib.

Doğrudur, erməni diasporu və bəzi siyasi qüvvələr revanşist hərəkətlərini davam etməkdədir. Prezident İlham Əliyevin dediyi kimi, "Fransada və bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar". Belə ki, 2024-cü ildə dünyanın ən böyük və ən mühüm dövlətlərarası tədbirlərindən birinin Azərbaycanda keçirilməsi Fransadakı erməni havadarlarını ciddi təşvişə salıb. Onlar COP29-un Azərbaycanda keçirilməsinin əleyhinə mətn imzalayıblar. Maraqlıdır ki, Ermənistanın özü Azərbaycanın xeyrinə COP29 sessiyasına ev sahibliyi etmək üçün öz namizədliyini geri götürüb. Yəni, Ermənistan rəhbərliyi Azərbaycanla birbaşa danışıqlar aparmağın adekvatlığını və məlumatlılığını nümayiş etdirdiyi halda, Fransa erməniləri açıq şəkildə bu prosesi pozmağa çalışırlar. Bu və ya digər şəkildə Azərbaycanın düşmənləri növbəti uğursuzluqları ilə barışmalı olacaqlar.

Əslində, COP29-un Bakıda keçirilməsində gözlənilməz heç nə yoxdur. Azərbaycan dünya gündəmindəki qlobal problemlərin qarşısını almaq və həll yollarının müəyyən edilməsi üçün mühüm təşəbbüslər göstərən, çağırışlar edən, həmin məsələləri beynəlxalq səviyyədə aktuallaşdıran dövlət kimi kifayət qədər hörmət qazanıb. Pandemiya dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin həyata keçirdiyi nəhəng diplomatik və humanitar fəaliyyəti, Azərbaycanın Qoşulmama Hərəkatının sədri bu qurumun institusional mexanizmlərin yaradılması səyləri konkret nümunədir. Həmçinin, Azərbaycan qlobal inteqrasiya prosesinə, nəqliyyat-kommunikasiya, loqistika layihələrinə ciddi töhfə verir və bu istiqamətdə səylərini artırmağa hazırdır. Bütövlükdə, geridə qoyduğumuz 2023-cü il bütün bu görülən işlər onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə, öz növbəsində, dünyada bir ilkdir və bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2024-cü ildə də yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək.

Qədəmlərin uğurlu olsun, 2024-cü il!

***RƏFİQƏ KAMALQIZI***

# Öyrədirik, söydürürük, gülürük...

**Səhv tərbiyə metodlarından biri, həm də ən dəhşətlisi uşaqlara söyüş öyrətməkdir. Öyrədirik, sonra söydürürük və gülürük. Həm də bununla o qədər fəxr edirik ki, kənardan necə gülünc doğurduğunu əsla görə bilmirik. Bu tərbiyə metodunda deyərdim ki, valideynlərdən çox baba, əmi-dayıların rolu olur. Guya ki, uşağı çox istəyirlər, dil açar-açmaz başlayırlar ona söyüş öyrətməyə. Həm də çox ağır söyüşlər. Evdə qonaq olanda və yaxud uşaqla birlikdə dost-tanışla görüşməyə gedəndə onu vadar edirlər ki, həmin söyüşlərdən söyləsin. Uşaq da utanıb çəkinəndə müxtəlif hədiyyələr alacaqlarını vəd etməklə onun ağzından həmin söyüşlərin çıxmasına nail olurlar. Hədiyyəsini alan uşaqda isə artıq ikinci bir xüsusiyyət də formalaşmağa başlayır: hədiyyə, rüşvət almaqla öz iradəsi əleyhinə iş görmək. Uşağa söyüş öyrətmək nə dərəcədə düzgündür, bu barədə danışaq...**



## Uşaq təqlidçidir

Ailədə uşaqların tərbiyəsində iki şəxs dayanır: uşaqlar və böyüklər. Böyüklər tərbiyəni təqdim, uşaqlar təqlid edəndir. Düşünəndə ki, uşaq gözünü açır, valideynini görür, onun danışdığını, ona yanaşmasını eşidir, hiss edir, bəli, bir uşağın ilkin təməli də elə həmin ailədə-valideyni və ya nənə-babası, digər yaxın qohumları ilə qoyulur. Belə isə uşaqların tərbiyə prosesindən çətin, məsuliyyətli bir iş yoxdur, desəm, yanılmaram. Bu məsələyə, dərindən düşünəndə, o qədər həssaslıqla yanaşılmalıdır ki, sonu gözəl nəticə versin.











Nə üçün yuxarıda uşaqlar təqlid edəndir, dedim. Çünki, sözün həqiqi mənasında, uşaqlar valideyni, onlarla birlikdə yaşayan digər böyükləri təqlid edirlər. Başqa cür ola da bilməz, ona görə ki, uşağı bir ağ vərəq olaraq düşünürüksə, o vərəqdə ilk mürəkkəb böyüklərin tərbiyəsi əsasında görünür, daha sonra yazılanlar isə sözsüz, ətrafdakıların dəsti-xətti ilə olur.

## Gələcək üçün təhlükə

Biz böyüklər- ata-ana, nənə-baba, əmidayı, xala-bibi olaraq uşağımızın tərbiyəsinə cavabdeh şəxslərik. Çünki aydın şəkildə anlamaq lazımdır ki, onların təməlini necə qoyuruqsa, tərbiyəsinə necə başlayırıqsa, gələcəklərini də o cür görəcəyik.

Ailələr var ki, orada uşağın tərbiyəsinə tək ana-atanın deyil, həm də digər ailə üzvlərinin də təsiri var. Baba öz istədiyini, əmi öz ürəyindən keçəni, bibi öz xoşladığını uşaq üzərində tətbiq etməyə çalışır. Biri söyməyi öyrədir, biri ərköyünlüyün təməlini qoyur, o biri bəlkə də istəməyərək eqoistliyi aşılayır. Düşünəndə ki, bunlar övladlarımızın gələcəyi üçün nə qədər təhlükəlidir, vallah, bu gündən dəsmal götürüb ağlamaq lazımdır. Lakin biz bəzən düşünmədən, bəzən qayın-qardaşımıza hörmətsizlik olar deyə, bəzən qayınana-qayınata qınağından uzaqda qalmaq üçün susuruq. Bilə-bilə ki, bunun gələcəyi heç də yaxşı olmayacaq, susuruq. Lakin ətrafdakı çoxsaylı yaxınlarımızın heç biri bu barədə düşünmür. Düşünmür ki, biz bu uşağı cəmiyyət üçün şəxsiyyət kimi böyütmürük, öz istəklərimizin təqlidçisi olaraq böyüdürük. Ona istədiyi an oyuncaq, şirniyyat almaqla, pul verməklə öz iradəmizdən asılı edirik. Ağzını söyüşə öyrədirik.

## Budur, səhvlərimizin qurbanı uşaqlar

İllər ötür, övladımız bağçaya, məktəbə gedəndə artıq dünən söydürüb güldüyümüz, uğunduğumuz uşaqlarımız bizim üçün problemə çevrilirlər. Hər gün onların söyüşlərinə görə müəllimlərdən giley gəlir. Biz də uşağımıza, filankəs, söyüş söymək olmaz ha, səni bağçadan, məktəbdən qovarlar, deyib onu qorxuduruq. Bu dəfə isə uşağa daha yeni bir səhv tərbiyə növünü tətbiq etməklə onda qorxu hissini formalaşdırmağa başlayırıq. Beləliklə uşağımız olur söyüşkən, hədiyyələrə boyun əyən və qorxaq.

Budur, bizim səhvlərimizin qurbanı olan uşaqlar. Böyüdükdən sonra da kimləsə bir sözü olarkən onu söyüb biabır edəndə, hətta bu söyüşləri bacı-qardaşına, ata-anasına qaytaranda onu günahkar sanırıq. Başlayırıq tərbiyəsinə görə ona nifrət etməyə. ”Sən niyə belə oldun, niyə bizim başımızı aşağı edirsən, adam da valideynə söyüş söyər?”,- deyir, onu qınayırıq ki, qınayırıq.

Ötən günləri xatırlamırıq ki, axı bu uşağı biz bu günə gətirmişik. Onun söyüş söyməsində də, hədiyyə, pul qarşılığında düşdüyü çıxılmaz yollarda da, qorxaqlıq edib yalan danışmasında da özümüz günahkarıq. Bir zaman söydürüb gülüb-şənləndiyimiz uşaqlarımız bir tikə çörəyimizi zəhərə çevirir, düzgün tərbiyə verə bilmədiyimiz övladlarımız narahat həyatımızın səbəbkarları olurlar.

## Nə əkərsən, onu da biçərsən...

Belə bir qənaətə gəlmək olur ki, bugünkü tərbiyə sabah öz bəhrəsini verəcəkdir. Nə əkərsən, onu da biçərsən, nə tökərsən aşına, o da çıxar qaşığına misalları kimi. Odur ki, uşaqlarımızı bir toxum, bir ting, bir gül fidanı kimi təsəvvür edək. Düşünək ki, o toxumu münbit torpağa əkməklə yaxşı məhsul əldə edə bilərik. Uşağımızı bir ting bilək. O tingi əlverişli bir mühitdə böyüdə, bar üstündə olan ağaca çevirə bilərik. Uşağımızı bir gül fidanı zənn edək, düşünək ki, o fidana necə baxsan, elə də görünüş ilə qarşılaşacaqsan. Ya həmin gül kolu gündən-günə gözəlləşəcək, ətrafa gözəl rayihə saçacaq, ya da ki, quruyub məhv olacaq, varlığından əsər-əlamət qalmayacaq.

Tərbiyə bir zəhmət növüdür. Sonda nəticəsi olan zəhmət növü. Zəhmətimizin hədər getməməsi üçün illərlə çalışırıq. Yuxarıda da vurğuladığım kimi, bir ağac tingini, gül fidanını torpağa əkməklə, toxumu torpağa səpməklə onun nəticələrini səbrsizliklə gözləyirik. Lakin gəlin, görək o ting, o toxum su içməzsə, müxtəlif aqrar qayğılarla əhatə olunmazsa, bizim gözlədiyimiz nəticəni verə bilərmi? Əsla yox. İnsan da təbiətin bir parçasıdır. Bu canlılar oxşar xüsusiyyətlərə malikdirlər. Sən onunla necə davranırsansa, o da səninlə elə davranır. Əllərimizin boş qalmaması, zəhmətimizin hədər getməməsi, illərimizin boş yerə xərclənməməsi naminə, gəlin, doğrunu, düzgünü səhvlərimizə qurban verməyək. Yoxsa çox əziyyət çəkməli olarıq. Rahatlığımız, övladlarımızın xoşbəxt gələcəyi naminə onlara düzgün tərbiyə verək ki, bəhrəsini dadanda zəhər tamında olmasın...

***Mətanət Məmmədova***



# “Boykot” sifarişli təxribatdır

Bütün dövrlərdə xarici maraqlı dairələrdən maddi və mənəvi dəstək almaqla ictimai maraqlara zidd fəaliyyət yolu tutan AXCP, Müsavat, Milli Şura və digər qurumlar və onların başbilənləri növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə qərarın verilməsindən sonra bir qədər də fəallaşıblar. Bu fəallığı bir növ onların quduzlaşması kimi də dəyərləndirmək olar. Çünki geniş şəkildə cəmiyyətin inkişafına və milli həmrəyliyə zərər vurmaq yolu tuturlar. Arada bir dezinformasiya xarakterli informasiyalar yaymaqla seçkilərlə bağlı cəmiyyətin yanaşmalarına, istək və arzularına şübhələr toxumu səpməyə çalışırlar. Lakin anlamırlar ki, xalq kifayət qədər seçki təcrübəsinə və siyasi bilgilərə malikdir. Bu baxımdan əhalini hər hansı bir yalan və böhtanla, dezinformasiya xarakterli xəbərlərlə hədəfindən və məqsədindən yayındıra bilməz. Dağıdıcı müxalifətin seçkilərə qatılmaqdan imtina etməsi onların zəifliklərinin göstəricisidir. Reallığı etiraf etməyib, hay-küy qaldırmaq isə siyasi mədəniyyətsizlik və qorxaqlıqdır. Seçkilərdə iştirak siyasətdə sağlam rəqabətin yeganə legitim vasitəsidir. Taleyüklü tədbirdən imtina edənlərinin səbəbi zəiflik və qalmaqallı situasiyaları təhrik etməkdir.

### ”Boykot”çular sağlam rəqabət əvəzinə destruktiv fəaliyyət yolu tuturlar

Əminliklə demək olar ki, Ə.Kərimli, A.Hacılı, C.Həsənli və digərləri yanlış siyasətlərinin acı nəticəsini yaşamalı olacaqlar. Ən azı seçkilərdə iştirak etməkdən imtina etməklə az sayda olan öz tərəfdaşlarını itirmiş olacaq. Çünki sıravi partiya üzvləri seçkilərə qatılmağın tərəfdarıdırlar. Lakin AXCP, Müsavat kimi partiyalar, onlara rəhbərlik edən Əli Kərimli, Arif Hacılı uzun müddətdir ki, seçkilərə qatılmırlar. Hətta Ə.Kərimli 1998-ci ildən sonra nə prezident, nə parlament, nə də bələdiyyə seçkilərində iştirak etməyib. Bu halda sual olunur, seçkilərə qatılmayacaqsansa, o zaman siyasətdə nə azarın var, nədən partiya sədrliyi kreslosunu zəbt etmisən? Təbii ki, sıravi cəbhəçilər məntiqli və əsaslı sualları Ə.Kərimliyə ünvanlayırlar. Qarşı tərəfin susması və özlərini etinasız kimi göstərmələri uzun sürə bilməz. Nəhayət, bu laqeydliyin və özbaşınalığın sonu olacaq. Bir gün sıravi cəbhəçilər bir araya gələrək Ə.Kərimlini və ətrafında olan trolları zibilliyə atmaqla, AXCP-də təmizləmə işi aparacaqlar. Bu isə Ə.Kərimlinin siyasətdə sonu olacaq.

### 7 fevral tarixi seçki olacaq

7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkiləri ən demokratik və azad seçkilər olacaq. Səbəbsiz yerə bu seçkiləri zəfər seçkiləri adlandırılmayıb. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra azad və ədalətli seçki keçirilməklə növbəti zəfərini yazacaq. Bu zəfərin əsas flaqmanı isə söz yox ki, xalq, qalibi isə Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev olacaq. Kimlərsə, o cümlədən dağıdıcı müxalifət seçki prosesinə qatılmamaqla növbəti dəfə tarixi şansı itirmiş olacaq. Bir daha nəzərə çatdırmaq lazımdır ki, seçkilər bütün iddialı tərəflərə ən yüksək münbit şəraitin yaradılması ilə keçirilir. Başlıcası, növbədənkənar seçkilərin keçirilməsinə dair qərar ölkədə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra qəbul olunub. Bununla da seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara imkan yaradılıb. Həmçinin, növbədənkənar seçkilərin keçirilməsi qərarından sonra hazırda ”boykot” deyib bağıran və təxribatçı mövqe sərgiləyən AXCP funksionerləri üçün partiyanın qurultayının keçirilməsinə icazə verilib və bu məqsədlə Maştağa qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzində şərait yaradılıb. Belə bir demokratik şəraiti dəyərləndirib, hakimiyyətə minnətdarlıq ifadə etməkdənsə, Ə.Kərimli və ətrafında olan trollar təxribat yolu tuturlar, seçkiləri boykot etmək kimi ağılsız iddia ilə çıxış edirlər. Bu azmış kimi sosial şəbəkələrdə cəmiyyəti təhdid edən statuslar paylaşırlar, açıq şəkildə icazəsi aksiyalar vasitəsi ilə sabitliyə zərbə vurmağa çalışacaqlarını bildirirlər. Bu kimi anormal hallar dağıdıcı müxalifətin müstəqil olmadığını və öz ağılı hərəkət etmədiyini göstərir. Çünki azərbaycanlı adına iddialı şəxs dövlətçilik maraqlarına zərbə vurmağa cəhd etməz. Digər tərəfdən, Ə.Kərimli ”44 günlük Vətən Müharibəsində əldə olunan qələbə Koçaryan-Sarkisyan cütlüyünün Qarabağı və ətraf rayonları işğal etmələrindən artıq ola bilməz”, - deyib beynəlxalq təşkilatlardan Azərbaycana iqtisadi sanksiyaların tətbiq edilməsini xahiş etməz. Bunu Ə.Kərimli və C.Həsənli abır-həya etmədən edirlər. Belə nəticə çıxarmaq olar ki, deməli, Ə.Kərimli, C.Həsənli erməni lobbisinin sifarişlərini yerinə yetirən məxluqlardır. Çünki başqa al demək və ya fikir yürütmək mümkünsüzdür.

*İLHAM ƏLİYEV*

# ”Yaşıl dünya naminə həmrəylik istiqamətində xalqımızın kifayət qədər təcrübəsi var”

“2023-cü il artıq başa çatmaq üzrədir. Azərbaycan xalqı 2023-cü il üçün nələri arzulamışdısa, onlar gerçəyə çevrildi. Məlum olduğu kimi, başa çatdırdığımız il ”Heydər Əliyev ili” idi. Bu ildə qazandığımız ən böyük nailiyyət Azərbaycanın öz tarixində ilk dəfə olaraq bütövləşməsi, suverenliyinin bərpa olunması və üçrəngli bayrağımızın ölkənin hər yerində dalğalanması oldu. Təbii ki, bu qələbənin qəhrəmanları var. Bu qəhrəmanlar Müzəffər Ali Baş Komandan, onun yetişdirdiyi əsgər və zabitlərdir. Ümumilikdə 10 milyon və bu qədər insanı sevən dünya azərbaycanlıları sözügedən qələbəni əldə etmək üçün mümkün olanları etdilər. Azərbaycanı sevən, onun haqq işini müdafiə edən dövlətlərin başında Türkiyə dayanır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.





Onun sözlərinə görə, Azərbaycanın dövlət başçısı 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə bağlı sərəncam imzaladı: ”Azərbaycan enerji baxımından kifayət qədər güclü bir dövlətdir. Azərbaycan o enerjilərə üstünlük verir ki, onlar ekoloji cəhətdən ərazimizə ziyan gətirmir, problemlər yaratmır. Yaşıl dünya naminə həmrəylik istiqamətində Azərbaycan xalqının kifayət qədər təcrübəsi var. Bu təcrübə kifayət edir ki, biz dünya dövlətlərinə də yaşıl dünya naminə həmrəyliyi elan edək. Bu gün Azərbaycan dünyaya sülhü, ədaləti, xalqların həmrəyliyini, başqasının torpağına göz dikməməyi diqtə edir. Uzun illər boyu Azərbaycan Qarabağ problemini sülh yolu ilə həll etməyə çalışdı. Təəssüf ki, qarşı tərəf nəinki sülh danışıqlarından imtina etdi, hətta Azərbaycanı yeni torpaqlarını işğal etməklə hədələdi. Ona görə də məcbur qalan Azərbaycan 44 günlük müharibə nəticəsində torpaqlarını işğal edən dövlətin ordusunu darmadağın etdi və onun havadarlarının arzusunu ürəyində qoyudu: ”Bu mənada yaşıl dünyaya təbliğ etdiklərimiz səmimi düşüncələrimizdir. ”

*Ləman Sərraf*

MÜNASİBƏT



Elçin Bayramlı

# Dünyanın gəmisi batır...

**”Biz dünyamızı o qədər dəyişmişik ki, indi burada mövcud olmaq üçün özümüzü kökündən dəyişməliyik” Viner Norbert (ABŞ riyaziyyatçısı, ”kibernetikanın atası”)**

**Qlobal iqlim dəyişməsi və təbii proseslərin pozulması artıq faciəvi nəticələrini göstərir. Təbii fəlakətlərin sayı və gücü artıb. Son bir neçə min ildə bircə dərəcə belə istiləşməyən planetimizin orta temperaturu son 1 əsrdə 3 dərəcə artıb ki, bu da faktiki fəlakət siqnalıdır. Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı temperatur qeydə alınıb. Sibirdə 40 dərəcə temperatur qeydə alınıb.**

Son elmi məlumatlar əriмənin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi. Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıracaq, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz. Son illərdə zəlzələlər, vulkanlar, qasırğalar, sellər, daşqınlar və digər təbii fəlakətlərin sayı kəskin artıb. Daha açıq desək, bunlar nəhəng qlobal kataklizmlərin başlayacağını göstərən ilkin simptomlardır.

Konkret olaraq bu proses antropogen təsirlərin, yəni birbaşa insan fəaliyyətinin nəticəsidir. Dağlarda buzlaqların əriməsi isə tezliklə qlobal içməli su böhranı yaradacaq və hətta su müharibələrinin baş verəcəyi ehtimal olunur. Dünya meşələrinin yandırılması, yeraltı və yerüstü təbii sərvətlərin vəhşicəsinə istismarı, havanın zəhərlənməsi, suyun çirkləndirilməsi dünyamızı məhvə aparır.

Baxmayaraq ki, iri sənaye oliqarxlarının oyuncaq ”elmi” mərkəzləri diqqəti problemin əsas səbəbindən yayındırmaq üçün bəşəriyyətə nağıl danışırlar. Guya ki, bu vəziyyət Günəşdə gedən hansısa proseslər, kosmosda baş verən hansı proseslərin, qütblərin sürüşməsinin təsiri ilə imiş. Halbuki, elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak qudurğanlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, bütün canlı aləmin məhvi üçün biz insanlar əlimizdən gələn hər şeyi edirik.

Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Bəzi nüfuzlu alimlərin fikrincə, artıq planetimizi, canlı aləmi xilas etmək, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilib. Bir çox ekoloq alimlər artıq planetimizdəki ekoloji proseslərin qarşısıalınmaz, geridönməz formaya keçdiyini etiraf ediblər. Yəni, necə deyərlər, ”bir balaca” gecikmişik. Dünya dövlətlərinin nümayəndələri müzakirə apardılar ki, qlobal istləşmənin sürətini azaltmaq üçün istehsal və atmosferə tullantılarının həcmi azaldılsın.

ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq. Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, dünyada normal idarəetmə sistemi qurulmayıb, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq.

Artıq sonun başlanğıcındayıq... amma hələ də bunun fərqində belə deyilik. Bunu batmaqda olan gəmidə oturan adamların gəminin deşilən yerini qapamaq üçün birgə çalışmaq əvəzinə bir-biri ilə dava edərək digərlərinin batacağına, özünün isə xilas olacağına ümid etməsi ilə müqayisə etmək olar. Dünya adlı gəmi deşilib, lakin bu heç kimi narahat etmir. Gəmi isə su ilə dolmaqda davam edir...

# Uşaqlar və diabet: səhərlər yemək yemirsə...

## Məktəblilərin günə ac başlaması məktəbdəki müvəffəqiyyətini minimuma endirir

**Ümumdünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir: "Səhər yeməyi körpə və məktəbyaşlı uşaqların böyüməsində və inkişafında ən önəmli faktordur". Təşkilatın məktəbli uşaqlarda diabet xəstəliyinin yayılması ilə bağlı araşdırmasında bildirilir ki, səhərlər yemək yemədikdə nahara qədər mədədə 4-6 saatlıq aclıq olur və bu da xüsusilə uşaqlarda şəkərli diabetə yol açır. Bu səbəbdən uşaqlarda diabetə rastlanma halları 12-13 yaşa qədər enib. Pediatr Pəri Həsənova səhər yeməyi yemədən evdən çıxan uşaqların bayırda dönər, bulka, şirniyyat, şokalad kimi karbohidratlarla zəngin qidaları yediyini və bu qidaların da diabetə təkan verən önəmli bir faktor olduğunu deyir.**

Uşaqların digər bir böyük probleminin məktəb bufetləri olduğunu deyən pediatr bildirir ki, uşaqlar məktəbdə istədikləri hazır qidanı tapıb yeyə bilir: "Düzdür, bir-iki il qabaq bufetlərdən çipsi, kola kimi zərərli qidaları yığışdırdılar, amma yenə də peçenye, şokalad, bulkalar satılır. Üstəlik evdə səhər yeməyi yeməyən uşağın cibinə valideyni də pul qoyur ki, dükandan, bufetdən nəsə alıb yesin. Uşaq da yolüstü mağazalardan çipsi, dönər, kola kimi zərərli qidaları alıb yığır çantasına, məktəbdə bu qidaları yeyir. Üstəlik bu qidaların mütəmadi qəbulundan sonra uşaqlarda mədə problemləri, bağırsaq narahatlıqları, qəbizlik yaranır".



Pediatr valideynlərə uşaqların məktəb çantasına qoyulacaq qidaları da sadaladı: "Yaxşı olar ki, övladınızın çantasına qoz, fındıq, badam, şabalıd, meyvə və ya meyvə quruları qoyasınız. Uşağa mütləq səhər yeməyi yedirin, məktəbə qətiyyən ac göndərməyin. Səhərlər süd, yumurta, ağartı məhsulları yedirin. Əgər məktəbdə qalma saatı çoxdursa o zaman çantasına əlavə olaraq evdə hazırladığınız sendviç qoya bilərsiniz. Sendviçi təmiz ətdən hazırlanmış kotlet, pomidor və xiyar, göyərtidən hazırlaya bilərsiniz. Ketçup yerinə ev üsulu tomat istifadə edin, mayonezin istifadəsini məsləhət görmürəm".





Anaların bir çoxunun səhərlər oyanmağa tənbəllik etdiyini də diqqətə çatdıran pediatr bildirir ki, bu tənbəllik uşaqların həyatına ciddi formada təsir göstərir: "Səhərlər uşaqların yemək yeməsi valideyndən asılıdır. Əgər onların marağına səbəb olan səhər yeməkləri hazırlansa, məsələn boşqabda maraqlı bəzəklər düzəldilsə, səhər yeməyinin vacibliyi barədə uşaqlarla söhbət edilsə nəticə effektiv olacaq. Unutmayın, səhər ac məktəbə göndərdiyiniz uşaq hər gün bir az da şəkərli diabetə yaxınlaşır".

Qidalanma və pəhriz ekperti, həkim Rövşən Sadiqinin sözlərinə görə səhər yeməyi böyüməkdə olan uşaqların gündəlik enerji və qida ehtiyacını ödəməsi ilə yanaşı məktəbdəki müvəffəqiyyətinə də təsir edir: "Axşam şam yeməyindən sonra yatan uşaqların səhər yeməyinə qədər 10-12 saatlıq zamanı yuxuda keçir, bu müddət ərzində təbii olaraq orqanizm axşam qəbul etdiyi qidanı həzmə göndərir, yenidən acır və yemək tələb edir. Yeni bir günə yemək yemədən başlamaq o ehtiyacı içimizdə boğmaq və bədənin tələbinə əhəmiyyət verməmək deməkdir. Xüsusilə də səhər yeməyi yeməyən uşaqların dərsdə diqqəti azalır, verilən tapşırıqları çətin qavrayır, dərsdə aktivliyi azalır. Səhər yeməyi uşaqlarda qavrama bacarığını artırır, çünki səhərlər sağlam qidalanma ilə uşaqların beynində enerji və diqqət artımı olur".





Ekspert deyir ki, səhər yeməyində kifayət qədər zülal istehlak edilməlidir: "Xüsusilə, süd, taxıl məhsulları, sıyıq və ya kobud undan hazırlanmış çörək, meyvə vacibdir. Zehni fəaliyyətlərin tələb etdiyi enerji resurslarının ən mühümlərindən biri də meyvələrdir. Beynin oksigendən başqa yeganə enerjisi qlükozadır və bədənimiz qlükoza anbarına malik deyil. Yəni başqa vitaminləri bədənimiz özündə mühavizə edib anbar kimi saxlaya bilir, orqanizmin ehtiyacı olanda lazımı yerlərə ötürə bilir, amma bu qlükozada mümkün olmur. Qlükoza meyvələrdə hazır halda olur, ona görə səhərlər istehlak edilməlidir. Əgər səhər uşaqlara yedirə bilmirsinizsə mütləq məktəb çantasına qoyun, məktəbdə yesinlər. Meyvələrin tərkibindəki qlükoza qanda şəkərin miqdarını tənzimləyir, nə normadan aşağı düşməyə, nə də normadan yuxarı çıxmağa qoymur".

Müsahibimiz də səhər yeməyi yeməyən uşaqların şəkərli diabetə tutulma riskini təsdiqlədi: "Səhərlər yemək yeməyən uşaqlarda qan şəkərinin səviyyəsi kəskin düşür, məktəbdə özünü yaxşı hiss etmir, halsızlıq, mürgüləmə, özündəngetmə, tərləmə, ürəkdə döyüntünün sürətlənməsi, mədə ağrısı, ürəkbulanması və sancılanma halları baş verir. Aparılan araşdırmalar da təsdiq edir ki, səhərlər yaxşı qəlyanaltı edən uşaqlar məktəbdə uğur əldə edir, səhər yeməyi yeməyən yaşıdlarından fərqlənir. Uşaqlara səhərlər karbohidrad mənbəyi kimi çovdar və ya kobud taxıl unundan hazırlanmış çörək, tərəvəz, meyvə və ya meyvə şirəsi, zülal mənbəyi kimi pendir, yumurta, süd və qatıq, yağ mənbəyi kimi nəhrə yağı, qoz, badam, fındıq, bal və ya doşab kimi sağlam qidalarla zənginləşdirilmiş bir menyu təşkil edə bilərik".

Əgər övladınızı uzun zamandır səhər qəlyanaltısı etmirsə, məktəbə ac gedirsə və onda çox su içmə, tez-tez sidiyə getmə, çəkisində getdikcə azalma və halsızlıq müşahidə edirsinizsə şəkərli diabetdən şübhələnin. Orqanizm qandakı şəkəri istifadə edə bilmədiyi üçün bədəndəki yağları istifadə edir və buna görə də arıqlama baş verir, bu vəziyyətə qarın ağrısı, ürəkbulanma və tez-tez nəfəs alma da əlavə olunur. Nəzərə alın ki, uşaqlarda diabet elə ilk mərhələsindən insulinlə müalicə edilir, ona görə ilkin diaqnozun nə qədər erkən olması müalicədə bir o qədər irəliləmə imkanı verir. Övladınızın səhər yeməyinə diqqət edin, insulin asılılığı onların körpə bədənləri üçün böyük yükdür.

***Lalə Mehralı***



# Yeniləşən yol infrastrukturu

Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib. Belə ki, son illər paytaxt Bakıda və rayonlarda yol infrastrukturunun genişləndirilməsi ilə bağlı mühüm tədbirlər görülür. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. Azərbaycan bu gün Avrasiya məkanında dinamik innovativ inkişaf edən lider dövlət, həm də iki qitə arasında mühüm və ən əlverişli nəqliyyat mərkəzidir. Bu mövqe düzgün siyasət, gələcək perspektivi aydın müəyyənləşdirən strateji kurs və vaxtında ən optimal islahatlar keçirilməsi, müasir layihələr icra edilməsi nəticəsində qazanılıb. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir.

Prezident İlham Əliyevin imzaladığı növbəti sərəncamlar yol infrastrukturuna töhfədir. Belə ki, dövlət başçısı "Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km)-Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında"










Sərəncam imzalayıb. Sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km)-Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

"Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 350,0 (üç yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır. Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bu gün ölkəmizdə avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan, yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir. Görülən işlər ümumilikdə ölkəmizin nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə töhfə verir.

Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən avtomobil-yol təsərrüfatı da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qadın ikili soyad necə ala bilər?

*AYDINLIQ GƏTİRİLDİ*

"Azərbaycan Respublikası vətəndaşının öz adını, ata adını və soyadını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Uşaqları İctimai Birliyinin hüquqşünası Fariz Əkbərov deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 28.7-ci əsasən nikah etibarsız hesab edildikdə, ər (arvad) nikah qeydə alınan zaman keçdiyi soyadı saxlaya bilər: "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 30-cu maddəsinə görə - ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər. Nikaha daxil olanların biri və ya hər ikisi qoşa soyada malik olduqda soyadların birləşdirilməsinə yol verilmir. Ər-arvaddan birinin soyadını dəyişdirməsi digərinin soyadının dəyişdirməsinə səbəb olmur.





Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir. Məhkəmə qaydasında nikah pozulduqdan sonra soyadını dəyişib keçmiş soyadına qayıtmaq istəyən qadın nikahın pozulması haqqında məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra nikahın qeydə alındığı yerin qeydiyyat şöbəsinə yaxınlaşmalı, həmin şöbədə keçmək istədiyi soyadı bildirməli və nikahın pozulması haqqında şəhadətnamə almalıdır".

***Ayşən Vəli***

# İctimai və dövlət maraqlarının qorunması diqqət mərkəzindədir



**İctimai və dövlət maraqlarının qorunması demokratik cəmiyyətin, vətəndaşların kollektiv rifahının və eyni zamanda, dövlətin sabitliyinin, eləcə də təhlükəsizliyinin qorunması, müdafiə edilməsi deməkdir. Bu baxımdan da hər bir cəmiyyətin başlıca məqsədlərindən biri məhz ictimai və dövlət maraqlarının qorunması hesab olunur. İctimai və dövlət maraqlarının qorunması bütövlükdə cəmiyyət üçün həyati əhəmiyyət kəsb edir.**

Hər bir cəmiyyəti təşkil edən fərdlərin ümumilikdə rifahının təmin edilməsi, çoxluğun marağının üstün sayılması ictimai maraqların qorunmasıdır. Müasir cəmiyyətlərdə ictimai maraqlar daha geniş və çoxşaxəli anlam kəsb edir. İctimai maraqlar dövlət-vətəndaş münasibətlərinə birbaşa təsir gücünə malikdir. Nəzərdən qaçırmaq lazım deyil ki, ictimai maraqları tənzimləyən, müdafiə edən də elə məhz dövlətdir. Ölkəmizdə həyata keçirilən uğurlu siyasət sayəsində ictimai və dövlət maraqlarının müdafiəsi davamlı şəkildə təmin edilir və hər zaman prioritet hesab olunur.

Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, yetkin bir cəmiyyətdir. Məhz buna görə də cəmiyyətimiz intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət olaraq xarakterizə edilməkdədir. "Bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır", deyə bəyan edən cənab Prezident İlham Əliyevin fikirlərindən də aydın görünür ki, ölkəmizdə dövlət mənafeyinə zərər gəlməyən, eləcə də ictimai maraqlar təmin edilən, ortaq maraqlar müəyyənləşdirilən ideal cəmiyyət artıq formalaşıb.

Xatırladaq ki, ölkəmizdə ictimai və dövlət maraqlarının mükəmməl vəhdəti Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslanır. Təsadüfi deyil ki, bizim üçün ictimai və dövlət maraqlarının müdafiəsi bütün azərbaycanlıları birləşdirən zəruri, güclü bir zəmin olaraq qəbul edilməkdədir. Etiraf etmək lazımdır ki, Ulu Öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev ölkəmizdə ictimai və dövlət maraqlarının mükəmməl vəhdətinə xüsusi önəm verir və xüsusi diqqət ayırır. Məhz bu diqqət sayəsində Azərbaycan dövlətinin suverenliyinin, müstəqilliyinin möhkəmlənməsi hər kəs tərəfindən qəbul olunur və hətta etiraf da edilir.

İctimai və dövlət maraqlarının müdafiəsi üçün vətəndaşlar da, dövlət də öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Məhz belə olduğu təqdirdə ictimai və dövlət maraqlarının qorunması məsələsində inkişafdan, irəliləyişdən danışmağa dəyər. Gördüyümüz kimi, dövlətimiz öz üzərinə düşəni edir. Biz vətəndaş olaraq bunu istənilən bir istiqamətdə müşahisə edirik, görürük. Bununla belə unutmaq lazım deyil ki, vətəndaşlar da öz üzərinə düşəni etməlidir ki, həmin maraqlar tam şəkildə müdafiə olunsun. Bunun üçün vətəndaşlar, sözsüz ki, dövlətin yanında olmalı, dövlətin siyasətini dəstəkləməli, dövlətin müəyyənləşdirdiyi qanunlara əməl etməlidirlər. İctimai mənafeyə zərər vura bilən addımlardan çəkinmək lazımdır və ümumiyyətlə, cəmiyyət özü bu məsələ ilə bağlı həddindən artıq həssas olmalıdır. Vətəndaşların öz vətəninə, dövlətinə bağlılığı, sadiqliyi bu məqamda olduqca böyük əhəmiyyət kəsb edir. Yeri gəlmişkən qeyd edək ki, təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılar, həmvətənlərimiz də dövlət maraqlarını, milli maraqları, azərbaycançılıq ideyasını rəhbər tutmalıdırlar. Hətta yetişməkdə olan gənc nəsil də məhz dövlət maraqlarının müdafiəsinə həssas yanaşılması ruhunda tərbiyə edilməlidir. Hər birimiz bilməliyik ki, kimliyindən, hansı peşənin sahibi olmasından, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı ictimai və dövlət maraqlarının qorunması kontekstində üzərinə böyük məsuliyyət düşduyunu başa düşməli və qəbul etməlidir.

Diqqətə çatdıraq ki, ictimai və dövlət maraqlarının qorunması istiqamətində ölkəmizdə davamlı şəkildə aparılan maarifləndirmə işi, vətənpərvərlik ideologiyasının gənclər arasında təbliğ edilməsi olduqca əhəmiyyətlidir. Orta məktəbdə, ali təhsil ocaqlarında, hərhansı təhsil, təlim-tərbiyə müəssisəsində azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik ruhunda gənclərin tərbiyə alması, ictimai və dövlət maraqlarının qorunması barədə kifayət qədər təbliğatın aparılması, eləcə də maarifləndirmənin həyata keçirilməsi artıq öz bəhrəsini verdi. Vətəndaşların, gənclərin məhz vətənpərvərlik ruhunda tərbiyə edilməsi, ictimai və dövlət maraqlarının qorunmasının aşılanması 44 günlük müharibə dönəmində öz bəhrəsini vermiş oldu. Məhz vətənpərvərlik ruhunda tərbiyə alan, ictimai və dövlət maraqlarını üstün tutan Azərbaycan gəncləri vətənimizin ərazi bütövlüyü uğrunda dövlətin ətrafında birləşdi. İctimai və dövlət maraqlarına böyük önəm verilməsi ilə, həmrəyliyimizlə, birliyimizlə, Azərbaycan Ordusunun rəşadəti ilə, məhz Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, uzaqgörənliyi, liderliyi və rəhbərliyi ilə ən qısa zamanda işğala son qoyuldu. Vətəndaşların ictimai və dövlət maraqlarını üstün tutması ilə torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Şahidi olduq ki, ictimai və dövlət maraqlarımızın, milli maraqlarımızın, mənafelərimizin, dəyərlərimizin qorunması yolunda gənclərimiz canından, qanından keçməkdə tərəddüd belə etmədilər.

Döyüş meydanında müharibə, mübarizə bitsə də, informasiya müharibəsi hələ də davam etməkdədir və hələ nə qədər davam edəcəyi məlum olmadığı təqdirdə, vətəndaşlar bilməlidirlər ki, ictimai və dövlət maraqları, milli maraqlarımız bundan sonra daha həssaslıqla qorunmalıdır. Dövlətimizin nüfuzuna xələl gətirmək, imicinə zərbə vurmaq üçün ölkəmizin əleyhinə olanlar hələ də fəaliyyət göstərməkdədirlər. Xaricdə olan erməni diasporu, lobbisi hər an milli maraqlarımıza, ictimai və dövlət maraqlarımıza zərbə vurmağa çalışır. Bunun üçün əllərindən gələni də etməkdədirlər. Məhz belə bir məqamda azərbaycançılıq ideyası bizim üçün əvəzolunmazdır və ictimai maraqların, eləcə də dövlət maraqlarının qorunması hər zamankı kimi yenə də prioritet hesab olunur. Xaricdə yaşayan həmvətənlərimiz ölkə hüdudlarından uzaqda olmalarına baxmayaraq, Azərbaycanın ictimai və dövlət maraqlarını qorumağı ümdə vəzifə, borc hesab etməlidirlər. Necə ki, 44 günlük müharibə dönəmində biz xaricdə yaşayan həmvətənlərimizin mübarizəsinin, ictimai və dövlət maraqlarını qoruduğunun şahidi olduq, bundan sonra da həmin mübarizənin davamlı olacağına ümid edirik. Çünki bilirik ki, həmvətənlərimiz ictimai və dövlət maraqlarının qorunmasının nə dərəcədə əhəmiyyətli, nə dərəcədə vacib olduğunun fərqindədirlər.

Bu gün Azərbaycanın Qarabağ iqtisadi rayonunda aparılan yenidənqurma, abadlıq işlərində xalq və dövlət birliyinin ən parlaq nümunəsini görməkdəyik. Gördüyümüz həmin işlər, əlbəttə ki, bizim ümumi maraqlarımızın, ictimai və dövlət maraqlarının təmin edilməsi, qorunması üçündür. Deməli, ictimai və dövlət maraqlarının qorunmasının gündən-günə aktuallığı, vacibliyi artır, prioritet məsələ hesab olunur və həyati əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da Azərbaycanda ictimai və dövlət maraqları həssaslıqla qorunur və həmin maraqların qorunması diqqət mərkəzindədir.

*İnam Hacıyev*

# Söhbət əvəzinə smaylik, görüş yerinə videozəng

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*





**Sürətlə inkişaf edən texnologiya və texnoloji alətlərə sahib olmaq həyatımızı asanlaşdırmaqla yanaşı, həm də sosial həyatımıza zərər verir. İndi ənənəvi üsullar yerinə virtual yollar köməyimizə yetir, elektron ticarət, elektron hökumət, elektron görüşlər vaxt baxımından bizə fayda versə də real ünsiyyət imkanımızı əlimizdən alır. Virtual platforma maddi-fiziki ehtiyaclarımızı asanlaşdırır, lakin mənəvi-psixoloji baxımdan fayda vermir, əksinə zərər verir. İnsan münasibətləri istiqamətini dəyişməyə başladı, real görüşlər minimuma endi, virtual görüşlər sürətlə artdı.**





## Hər dəyişiklik faydalı olmur

Dünya sürətli sosial-iqtisadi dəyişiklik prosesini yaşadığı bir vaxtda elm və texnologiya da düz mütənasib olaraq irəliləyir. Dünyada bu sürətli dəyişikliyin nəticələri bir çox aspektlərdə cəmiyyətlərə və davranış modellərinə təsir edir, sosial münasibətlər anlayışına təsir edir. Dəyişiklik çoxşaxəli təsirə malik olduğundan cəmiyyətin bir çox istiqamətində hiss olunur.

Üz-üzə ünsiyyətdən virtuala, kağızdan rəqəmsal sənədlərə, uzun müddət sərf edərək iş müraciəti etmək yerinə online müraciətlər kimi bir çox dəyişikliklər virtual dünyanın məhsuludur. Virtuallaşmanın tarixi inkişafı - internetin həyatımıza girdikdən bu günədək olan inkişafı insanlığın məruz qaldığı mənəvi böhran da hesab edilir. Çünki həyatımız asanlaşdırdığı qədər sosial çevrəmizlə münasibətlərimizi qoparmağımıza da o səbəb olur.

Rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl görüş təyin edirdik, sonra görüşür, sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Lakin indi bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət qura bilirik, mesajla, adi zənglə, görüntülü zənglə və s. Texnologiya o qədər sürətlə inkişaf edir ki bəzən özümüz də onun sürətinə yetişə bilmirik.

Doğrudur, sosial şəbəkələr həyatımıza olduqca rahatlıq gətirdi, həm fikrimizi çatdırmaq, həm yeni fikirlərlə tanış olmaq üçün əlverişli ünsiyyət vasitəsidir. İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də müstəvi dəyişir. Real həyatdakı münasibətlərimiz indi bir-bir sosial platformalara keçir. Başqa sözlə desək sosiallaşmaq da zamanla rəqəmsallaşdı.

## Çox insan real ünsiyyətdən qaçır



XXI əsrdə texnologiyanin inanılmaz sürətli inkişafı bizə müsbət təsiri ilə yanaşı mənfi təsirini də nümayiş etdirdi. İnternet sayəsində tanınmış kitabxanaların elektron məhsullarını gözdən keçiririk, satışda olmayan kitabların electron versiyasını əldə edirik, uzaqda olan yaxınlarımızı canlı görə bilirik, yeni dostluqlar və münasibətlər əldə edə bilirik. Bütün bunlar müsbət xüsusiyyətlərdir, yaxşı bəs o zaman internetin bizə verdiyi mənfi tərəflər hansılardır?

Bir vaxtlar insanlar üzbəüz ünsiyyətdən zövq alırdılar, amma indi virtual ünsiyyət daha çox dəbdədir. Ofisdə bir-biri ilə ünsiyyət qurmağa "ərincəklik" edən iş yoldaşları bir-birinə sözü olanda "facebook"dan mesaj yazırlar. Bir çox insan virtual məkanda hisslərini daha yaxşı ifadə etdiklərini deyirlər. Mütəxəssislər isə bunu ünsiyyət problemi ilə əlaqələndirirlər. Hətta bəzi sosioloqlar internet vasitəsi ilə ünsiyyət qurmanın fərdin real şəxsi ünsiyyət qurmasındakı ən böyük sədd olduğunu düşünürlər.

Pandemiya illərində təhsilin online sistemə keçirilməsi, iş yerlərinin bir çoxunun online olaraq fəaliyyət göstərməsi iş və təhsil məhsuldarlığını azaltdı. Xüsusilə virtual dərs alan abituriyentlərin imtahan göstəriciləri əvvəlki illərdə normal təhsil sistemi ilə dərs alan abituriyentlərin nəticələri ilə müqayisə edildikdə itirdiklərimizin daha çox olduğunu müşahidə etdik. Özümüzü virusdan qoruduğumz o qapanma müddətində sosial həyatımız, ünsiyyət bacarımız, təhsilimiz də deformasiyaya uğradı. Milli dəyərlərimizdən hesab etdiyimiz o böyük süfrələr, qonaqlıqaralı evlərin sayı azaldı, hər kəs əlindəki ekranın əsirinə çevrildi. Bizi özünün böyük, vahiməli toruna salan virtual dünya hər gün üzərimizdə bir az da çox hakimiyyət qurur.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
30 dekabr
2023-cü il

# Açıqlandı: Azərbaycan ən çox bu meyvənin ixracından pul qazanır



**"Ölkənin bütün bölgələrində ümumilikdə 7,1 min hektarda şaftalı əkilib. Şaftalı bağları ən çox Xaçmaz, Şəmkir, Goranboy, Göygöl, Quba, Qusar, Şabran və Balakəndədir. Şaftalı (nektarin) - ölkəyə ən çox valyuta gətirən meyvələrdən olsa da, 2022-ci ilin rəqəmlərinə baxsaq, ilk yerdə deyil. Statistik rəqəmlərə əsasən, ən çox alma (318,2 min ton), nar (187.4 min ton), xurma (184,3 min ton), fındıq (72.1 min ton) məhsul istehsal olunub. Burada da həmin rəqəmlərə əsasən, şaftalı ortancıl yerdədir, 57.7 min ton şaftalı tədarük olunub. Bağların məhsuldarlığına görə, yenə orta yerdədir 91.2 sentner/hektar". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.**

İqtisadçı deyir ki, ümumilikdə, ildən-ilə şaftalı ixracından əldə edilən gəlir artır: "Burada aqrar sığortanın da rolu var: "Nazirlər Kabinetinin 21 dekabr 2021-ci il tarixli müvafiq qərarı ilə ərik və şaftalı (nektarin) də sığortalanan məhsullar sırasına daxil edilib. Ərik və şaftalı bağlarında güzəştli sığorta mövcuddur. Şaftalı bağlarının sığorta haqqı regiondan və məhsuldarlıqdan asılı olaraq dəyişir. Müxtəlif regionlarda şaftalı bağının baza zərfi üzrə sığortası üçün tariflər 2,55%-5,34% arasındadır. Misal, 1 hektar şaftalı bağının sığortası: 6000 manatlıq məhsul şaftalı bağının baza zərfi üzrə sığortalanması ölkənin regionlarından asılı olaraq 153-320 manat arasında dəyişir. Fermer bu məbləğin yalnız yarısını - 77-160 manatını ödəyir, qalan hissəni dövlət ödəyir".

"Sığorta hadisəsi nəticəsində sahədəki məhsul tamamilə itirilərsə, sığorta ödənişi 5400 manat təşkil edir. Aqrar sığorta ərik və şaftalı (nektarin) bağlarını dolu, qasırğa, fırtına, sel və subasma, leysan, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları, üçüncü şəxslərin hərəkətləri, ildırım, yanğın, zəlzələ, torpaq sürüşməsi və sair risklərdən qoruyur"- deyə o əlavə edib.

***Ləman Sərraf***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ançelotti daha 2 il "Real"da



"Real" baş məşqçisi Karlo Ançelotti ilə müqaviləni uzadıb. Bu barədə "Relevo" məlumat yayıb. 64 yaşlı mütəxəssislə Madrid təmsilçisi arasındakı anlaşma 2026-cı ilin yayına kimi nəzərdə tutulub. Tərəflərin əvvəlki sözləşməsi isə 2024-cü ilin yayına qədər idi. Bildirilir ki, yaxında "Real" Ançelotti ilə yeni müqavilə imzalanmasını rəsmi şəkildə açıqlayacaq.

# Dünya əhalisinin sayı 8 milyardı keçir



Dünya əhalisi son bir ildə 75 milyon artıb. Yeni ilin ilk günü dünya əhalisinin sayı 8 milyarddan çox olacaq. SİA xəbər verir ki, bu barədə "United States Census Bureau" məlumat yayıb. Məlumata görə, 2024-cü ilin əvvəlində dünyada hər saniyədə 4,3 doğuş və iki ölüm hadisəsinin baş verəcəyi gözlənilir.

# Qızılca zamanı hansı təbii vasitələrdən istifadə edək?



"Son dövrlər sosial şəbəkələrdən, KİV-lərdən oxuduğumuz qədəri ilə qızılcanın yayılmasında artım müşahidə olunur. Qızılca səpkilərlə müşahidə olunan epidemik, yoluxucu bir xəstəlikdir və hava damcı yolu ilə yayılır. Qızılca virusu insandan insana yoluxulur. Heyvanlar bu xəstəliyin daşıyıcısı olmadığından onlardan bu xəstəliyin insanlara keçməsi istisna haldır". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.

Onun sözlərinə görə, qızılca xəstəliyini müalicə etmək üçün istifadə ediləcək müxtəlif üsullar var: "Bunlardan biri tibbi üsulla müalicədir. Müxtəlif dərmanlar istifadə edərək yayılmasının qarşısı alınır. Müasir tibbdən başqa qızılcanın sağalmasının təsir edən faydalı qidalar da var. Qızılca xəstəliyinin müalicəsində flavonoidlərlə zəngin meyvə və tərəvəzlər istehlak edərək sağalmanı sürətləndirə bilərik. Həmçinin A vitamini ilə zəngin qidaların qəbulu qızılca şikayətlərinin azalmasına kömək edə bilər. Yetəri qədər su qəbulu, meyvə suyu və bitki çayları da köməyə çata bilər. Qızılca virusu ümumiyyətlə A vitamini çatışmazlığı, düzgün qidalanmama, qeyri-gigiyenik həyat şəraiti və bir çox səbəblərdən başverə bilir. Qızılca xəstəliyinin qarşısını tam ala biləcək dərman olmasa da, düzgün qidalanma və həkim tövsiyələri ilə istifadə edilən dərmanlar vasitəsilə xəstəlik tez xilas olmaq mümkündür.

Zeytun yarpağı qızılca xəstəliyinin müalicəsində istifadə oluna bilən təsirli bitki mənşəli məhsuldur, çünki antibakterial və antiviral xüsusiyyətlərə malikdir. Lavanda yağı xəstəlik səbəbi ilə yuxu problemi olan insanlar üçün ideal bitki ekstraktıdır. Yorgan örtüyünün üzərinə bir neçə damcı damlatmaqla xəstə daha rahat yata bilər.

Bir və ya iki diş sarımsağı əzib, bal ilə qarışdıraraq da qəbul edə bilərik. 1-2 limon sıxıb gündə bir neçə dəfə içmək də qızılcanın sağalmasına kömək edə bilər. Qızılcaya faydalı qidalardan portağal suyu tövsiyə edilə bilər. Həm xəstəlik zamanı yaranan iştahsızlığın qarşısını alar, həm də C vitamini ehtiyacını qarşılayaraq sağalmanı sürətləndirə bilər. Bütün bunlarla yanaşı bütün bu tövsiyələrə müraciət etməzdən əvvəl həkiminizlə məsləhətləşməniz ən doğru seçimdir".

***Ayşən Vəli***

## BAŞSAĞLIĞI

"Yeni Azərbaycan" qəzetinin kollektivi "Yeni Azərbaycan TV"-nin əməkdaşı Cümə Kazımova anası

**Yeganə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**